**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

26 aprel 2025-ci il №14 (9120) www.muallim.edu.az muallim@media.edu.az

**Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci il aprelin 27-də qəbul olunan Azərbaycan SSR-in yeni Konstitusiyasında Azərbaycan dili Dövlət dili kimi təsbit olunub**

# İlham ƏLİYEV: "Azərbaycan və Çin universitetləri arasında məhsuldar əməkdaşlıq həyata keçirilir"



**"Strateji tərəfdaşlığın qurulmasına dair Birgə Bəyannamədə iki ölkənin mövcud müqavilə-hüquqi bazası çərçivəsində təhsil sahəsində əməkdaşlığın sabit inkişafı bəyan edilib. Bununla yanaşı, biz dillərin öyrənilməsi və tədrisi sahəsində əməkdaşlığa xüsusi diqqət yetirmişik".**

**Azərbaycan və Çinin ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə bakalavr, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı əldə edən ölkələrimizin vətəndaşlarının sayı ildən-ilə durmadan artır.**

**Konfutsi İnstitutunun tərəfdaşları olan Azərbaycanın bir sıra ali təhsil müəssisələrində Çin dili tədris olunur. Sevindirici haldır ki, son illərdə Çində də Azərbaycan dilinin və mədəniyyətinin öyrənilməsi mərkəzləri fəaliyyətə başlayıb, müvafiq kafedra yaradılıb.**

**Əminəm ki, Çin və Azərbaycan dillərinin təhsil müəssisələrində tədrisinin, müəllimlər arasında mübadilənin və mütəxəssislər hazırlanmasının dövlət tərəfindən dəstəklənməsi dövlətlərin müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətinin səmərəliliyinə imkan yaradacaq, iki xalqın yaxınlaşmasına və qarşılıqlı mədəni zənginləşməsinə xidmət edəcək".**

**Prezident İlham Əliyevin Çinin Sinxua agentliyinə məxsusi müsahibəsindən**



## STRATEJİ TƏRƏFDAŞLIQDA TƏHSİL

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində aprelin 23-də Pekində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən imzalanmış sənəddə digər sahələrlə yanaşı iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi də nəzərdə tutulur.

Bəyanata əsasən, tərəflər elmi-tədqiqat müəssisələrini və elm işçilərini qarşılıqlı maraq kəsb edən mövzularda birgə tədqiqatlar aparmağa, texnologiya transferinə və əldə olunan nailiyyətlərin kommersiyalaşdırılmasına təşviq edəcəklər, habelə birgə elmi-tədqiqat platformaları yaradacaqlar.

Bundan əlavə, tərəflər müxtəlif kanallar vasitəsilə qarşılıqlı tələbə mübadiləsini davam etdirmək, Azərbaycanda Konfutsi institutlarının inkişafına dəstək vermək və təhsil müəssisələrində Azərbaycan və Çin dillərinin tədrisini təşviq etmək, habelə iki ölkənin müxtəlif tipli təhsil müəssisələri arasında müxtəlif səviyyəli tərəfdaşlıq əlaqələrinin qurulması barədə razılığa gəliblər.

Aprelin 23-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin iştirakı ilə Azərbaycan - Çin sənədlərinin imzalanması mərasimi olub. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Elm və Texnologiya Nazirliyi arasında elm və texnologiya sahələrində əməkdaşlıq haqqında Protokol"u Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin elm və texnologiya naziri Yin Hecun imzalayıblar.

Prezident İlham Əliyev Çinə rəsmi səfəri çərçivəsində bu ölkənin Sinxua agentliyinə məxsusi müsahibə verib. Dövlət başçısı müsahibəsində qeyd edib:

"Strateji tərəfdaşlığın qurulmasına dair Birgə Bəyannamədə iki ölkənin mövcud müqavilə-hüquqi bazası çərçivəsində təhsil sahəsində əməkdaşlığın sabit inkişafı bəyan edilib. Bununla yanaşı, biz dillərin öyrənilməsi və tədrisi sahəsində əməkdaşlığa xüsusi diqqət yetirmişik.

Azərbaycan və Çinin ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə bakalavr, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı əldə edən ölkələrimizin vətəndaşlarının sayı ildən-ilə durmadan artır. Konfutsi İnstitutunun tərəfdaşları olan Azərbaycanın bir sıra ali təhsil müəssisələrində Çin dili tədris olunur. Sevindirici haldır ki, son illərdə Çində də Azərbaycan dilinin və mədəniyyətinin öyrənilməsi mərkəzləri fəaliyyətə başlayıb, müvafiq kafedra yaradılıb.

İki ölkənin universitetləri arasında məhsuldar əməkdaşlıq həyata keçirilir, zəruri müqavilə-hüquqi baza yaradılır.

Əminəm ki, Çin və Azərbaycan dillərinin təhsil müəssisələrində tədrisinin, müəllimlər arasında mübadilənin və mütəxəssislər hazırlanmasının dövlət tərəfindən dəstəklənməsi dövlətlərin müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətinin səmərəliliyinə imkan yaradacaq, iki xalqın yaxınlaşmasına və qarşılıqlı mədəni zənginləşməsinə xidmət edəcək".

### "Azad olunmuş ərazilərimizin bərpasında iştirak etməkdən şərəf duyaram"



Bax səh. 4

### Təkrar ali təhsil alanlar tələbə kreditindən yararlana bilərlərmi?




Bax səh. 5

### Azərbaycan təcrübəsi əsasında Özbəkistanda STEAM Mərkəzi qurulub



Bax səh. 6

### Azərbaycan Tələbə Liqasının qrup oyunları yekunlaşıb



Bax səh. 8

# ANA DİLİMİZİN HAMİSİ



**Heydər ƏLİYEV, Ümummilli Lider**

**"Dil, dil, bir də dil... Dili inkişaf etdirməliyik. Mən demişəm və bu gün də deyirəm. Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan".**

**DİL** – millətin ruhudur. O, yalnız ünsiyyət vasitəsi deyil, həm də tarix, kimlik, yaddaş və milli qürurdur. Hər bir xalq öz varlığını dili ilə yaşadır, dilində danışır, düşünür, ağlayır və sevinir. Ana dili insanın dünyaya göz açdığı ilk səslər, ilk kəlmələr, ilk dualar və ilk laylalardır. Ana dilində danışmaq sadəcə ifadə etmək yox, həm də bir millət kimi yaşamaqdır. Bu dili yaşatmaq isə milli yaddaşı, tarixi və gələcəyi qorumaq deməkdir. Amma hər dövrün öz çətinlikləri olub. Elə bir zaman olub ki, millətlərin dilləri susdurulmaq, adları unudulmaq təhlükəsi ilə üz-üzə qalıb. Yalnız bu sınaqlar qarşısında kimliyini qoruyan, dilini yaşadan millətlər tarixdə silinməz iz buraxa bilib. Belə anlarda cəsarətli qərarlar, milli düşüncə və vətənə sədaqət önə çıxır. Məhz belə bir dövrdə – 1970-ci illərdə Azərbaycanın taleyüklü məqamında Ümummilli Lider Heydər Əliyev milli kimliyimizin – ana dilimizin qorunması uğrunda tarixə yazılacaq işlərin başlanğıcını qoydu.

1970-ci illər... Sovetlər Birliyində milli dillərin kənara çəkildiyi, rus dilinin üstün tutulduğu, yerli xalqların mədəni kimliyinə təzyiqlərin artdığı bir dövr idi. Belə bir zamanda Azərbaycan dilini yaşatmaq və onun hüquqi statusunu qorumaq böyük siyasi iradə, qətiyyət və ən əsası millətə olan sevgi və sədaqət tələb edirdi. O dövrdə respublikamıza rəhbərlik edən Heydər Əliyev məhz bu tarixi missiyanı üzərinə götürərək cəsarətli addımlar atdı.

Ulu Öndər 27 aprel 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasında mühüm bir maddənin yer almasına nail oldu: "Azərbaycan SSRİ-nin dövlət dili Azərbaycan dilidir". Bu, sadəcə bir hüquqi ifadə deyildi. Bu, milli ruhun, dilə olan sevginin, öz kimliyinə sahib çıxmağın konstitusion zəfəri idi. Həmin dövrdə belə bir təşəbbüsü irəli sürmək böyük cəsarət tələb edirdi. Çünki SSRİ-nin ideoloji mühiti milli dilləri arxa plana keçirmək üçün müxtəlif formalı təzyiqlər yaradırdı. O dövrdə, SSRİ məkanında milli dillərin sıxışdırılması adi hala çevrilmişdi. Liderlərin əksəriyyəti bu mövzuda susur, hətta öz ana dillərindən çəkinirdilər. Amma Heydər Əliyev susmadı. O, xalqının dili ilə nəfəs almağa, o dili qorumağa və yaşatmağa and içmişdi. Onun üçün dil məsələsini gündəmə gətirmək, müdafiə etmək təkcə siyasi mövqe yox, tarixi missiya idi.

Dahi şəxsiyyət Heydər Əliyev çətinliklərə baxmayaraq dilin millətin varlığı olduğunu öz qətiyyətli qərarı, siyasi nüfuzu ilə bir daha əməldə göstərərək onun əbədiliyini qanuniləşdirən maddənin təsbitinə nail oldu. Bu, bir xalqın öz kimliyinə, mədəniyyətinə və ruhuna sahib çıxması idi. Və mühüm tarixi hadisənin arxasında dayanan şəxs Ulu Öndər oldu. Böyük Azərbaycanlının cəsarəti, uzaqgörənliyi və vətənə sonsuz sevgisi bu qərarın verilməsində həlledici rol oynadı.

# Sözümüzün gücü:

## DÖVLƏT DİLİ STATUSUNUN ŞƏRƏFLİ YOLU

### Bu, bir xalqın varlığına yazılmış etiraf idi

Ümummilli Liderin hər bir qərarı, çoxşaxəli fəaliyyəti gələcək müstəqil dövlətimizin möhkəm sütunlar üzərində bərqərar olmasına xidmət edirdi. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən dahi şəxsiyyətin təşəbbüsü ilə 73-cü maddəni məhz aşağıdakı redaksiyada vermək təklif olundu: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Ulu Öndər bununla müstəqil dövlətçiliyimizin milli rəmzlərindən birini uzaqgörənliklə qoruyub saxladı.

Konstitusiyaya "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir" maddəsinin əlavə olunması gələcək müstəqil dövlətimizin dil üzərində qurulmuş təməl daşlarından biri oldu. Bu, yalnız hüquqi sənədin bir maddəsi deyildi. Bu, bir xalqın varlığına yazılmış etiraf idi.

### Dil sadəcə ünsiyyət vasitəsi deyil

Dahi şəxsiyyət Heydər Əliyev dilin sadəcə bir ünsiyyət vasitəsi deyil, milli-mənəvi dəyər, mədəniyyət və dövlətçilik rəmzi olduğunu dəfələrlə vurğulayıb. Ulu Öndərin rəhbərliyi ilə ana dilimizin inkişafına yönələn yüzlərlə addım atıldı, alimlərə dəstək verildi, milli ədəbiyyat və mətbuat gücləndirildi, yeni nəşrlər çap olundu, dilin elmi əsaslarla tədrisi formalaşdırıldı.

Bu möhtəşəm yol müstəqillik dövründə də davam etdi. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülsə də son nəticədə "Azərbaycan dili" olması dəstəkləndi. Belə ki, Ümummilli Lider müstəqil dövlətimizin yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında müzakirələrin məntiqi nəticəsi kimi dövlət dilinin adı barədə o zaman da öz qətiyyətli mövqeyini ortaya qoyaraq "Mən hər bir dilə hörmət edirəm və ehtiramımı bildirirəm. Hesab edirəm ki, Azərbaycan dili ilə fəxr edə bilərik. Çünki bu zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın da, dilimizin də adı tanınıb. Bu, reallıqdır"-




söyləyərək məsələyə nöqtə qoydu. Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndirildi.

### Ana dilimizin inkişafı və problemləri daim diqqət mərkəzində

Heydər Əliyev ana dilimizin tarixi keçmişi ilə yanaşı, mövcud durumunu və problemlərini də daim diqqət mərkəzində saxlayıb və bu istiqamətdə bir sıra mühüm tədbirlərin həyata keçirilməsinə nail olub. Ümummilli Liderin 2001-ci ilin 18 iyun tarixində imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman, ilk növbədə, müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi, formalaşması və möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir. Adıçəkilən Fərmanla Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyası yaradıldı. Ulu Öndərin 2001-ci il 9 avqust tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərmanına əsasən, hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur. 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbulu isə dövlətçilik baxımından olduqca mühüm bir sənəddir. Bu Qanuna əsasən, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsinin qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni, özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Qanun Azərbaycan Konstitusiyasına uyğun olaraq ölkəmizdə Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu tənzimləyir.

Azərbaycanda ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn siyasətinin nəticəsidir. Dahi şəxsiyyət deyirdi: "Milli-mənəvi dəyərlərimiz bizim ana dilimizdir, Azərbaycan dilidir, bizim dinimizdir, bizim adət-ənənələrimizdir, bizim mənəvi-əxlaqi mentalitetimizdir. Bunların hamısı ilə biz fəxr edirik və fəxr etməliyik. Bizim bütün təbliğatımız, bütün elmi işlərimiz insanlarda bu milli-mənəvi dəyərlərə görə qürur hissi, iftixar hissi doğurmaq və bu milli-mənəvi dəyərlərə sədaqət aşılamaqdan ibarət olmalıdır".

### Atılan hər bir addım Azərbaycanın uğurlu gələcəyinə hədəflənib

Bəli, qədim tarixi keçmişin izlərini özündə yaşadan və milyonlarla azərbaycanlının ünsiyyət vasitəsi olan Azərbaycan dili xalqımızın misilsiz mənəvi sərvəti, milli varlığımızın və dövlət müstəqilliyimizin başlıca rəmzlərindəndir. Ən dərin fikirləri ən incə çalarlarınadək ifadə qüdrətinə malik dilimiz öz kamilliyi və zənginliyinə görə dünya dilləri içərisində layiqli yerini bu gün də qoruyub saxlayır.

Əbədiyaşar Lider atdığı hər addımı ilə göstərdi ki, "Dil varsa, xalq da var". Və dəyərli miras bu gün etibarlı əllərdədir. Son 21 ildən artıq dövrdə Ulu Öndərin müəyyən etdiyi dil siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçımızın rəhbərliyi ilə qəbul edilən mühüm sənədlər, o cümlədən 2013-cü il 9 aprel tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" ana dilimizin bu günün çağırışlarına uyğun inkişafını təmin etmək məqsədi daşıyır. Eyni zamanda, 2018-ci ildə imzalanan iki mühüm sənəd – "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi haqqında" Sərəncam və "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı tədbirlər planı haqqında" Fərman müasir dövrdə dilimizin texnoloji və kommunikativ imkanlarını artırmaqla onun gələcəyini daha da möhkəmləndirdi. Bu, artıq dilin təkcə qorunması deyil, onun yaşaması və yaşadılması deməkdir. Və bu sənədlər Azərbaycan dilinin bu günü və gələcək inkişafına yönəlik ən uğurlu addımlar kimi dəyərləndirilə bilər.

### Azərbaycan dilində düşünürüksə, danışıb, yazırıqsa...

Prezident İlham Əliyev hər çıxışında azərbaycanlı olmağın fəxrini, ana dilimizin dəyərini önə çəkərək göstərir ki, bu dilin qorunması təkcə dövlət siyasəti deyil, həm də milli qürur məsələsidir. Azərbaycan dili təkcə konstitusion statusu olan bir rəsmi dil deyil. Bu dil bizim kimliyimiz, ruhumuz, birliyimizdir.

Biz bu gün Azərbaycan dilində düşünürüksə, danışıb, yazırıqsa və yaratmaq azadlığına sahibiksə, bu, Heydər Əliyevin zamanında göstərdiyi cəsarətin, uzaqgörənliyin və milli təəssübkeşliyinin nəticəsidir.

Dilimizin rəsmi statusu həm tariximiz, həm də gələcəyimizdir.

**Samirə KƏRİMOVA**

# Heydər Əliyev Fondunun təhsil və sosialyönümlü layihələri Vyetnamı da əhatə edir

### Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vyetnama səfər edib







Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vyetnama səfəri çərçivəsində aprelin 21-də bir sıra görüşlər keçirib.

AZƏRTAC xəbər verir ki, Hanoy Ticarət və Turizm Kollecində Leyla Əliyeva yaradıcı sənaye nümayəndələri və təhsil müəssisələrinin liderləri, eləcə də sovet dövründə Azərbaycanda təhsil almış vyetnamlı məzunlar ilə görüşüb.

Görüşdə bildirilib ki, 1965-ci ildən fəaliyyət göstərən Hanoy Ticarət və Turizm Kolleci bu sahədə Vyetnamın ən böyük və nüfuzlu təhsil müəssisələrindən biridir. Təxminən 3000 tələbəsi olan kollecin müxtəlif akademik və peşə təhsilinin səviyyələri üzrə 50-dən çox təlim proqramı var.

Eyni zamanda, Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında müxtəlif sahələrdə mövcud əlaqələr, iki xalq arasındakı möhkəm dostluq münasibətləri, bu əlaqələrin qurulmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ildə Vyetnama dövlət səfərinin ölkələr arasında münasibətlərdə yeni səhifə açdığı vurğulanıb. Mövcud əlaqələrin genişlənməsinə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələrin öz töhfəsini verdiyi qeyd olunub. Fondun təhsil və sosial yönümlü layihələrinin Vyetnamı da əhatə etdiyi diqqətə çatdırılıb. Bu istiqamətdə Vyetnamın Ha Giang əyalətində Heydər Əliyev Fondunun dəstəyi ilə ibtidai məktəbin inşa edildiyi xatırladılıb.

Görüş zamanı ikitərəfli münasibətlərə, Ümummilli Lider Heydər Əliyevin iki ölkənin və xalqın dostluğu istiqamətindəki töhfələrə, hazırda Azərbaycan-Vyetnam yüksək səviyyəli əlaqələrinə dair fikir mübadiləsi aparılıb. Mövcud münasibətlərin daha da genişləndirilməsi, bu çərçivədə Heydər Əliyev Fondu tərəfindən təhsil və sosial sahələrdə həyata keçiriləcək layihələr müzakirə edilib.

Ticarət və Turizm Kollecində, həmçinin 1968-1990-cı illərdə Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində təhsil almış vyetnamlı məzunlarla görüş keçirilib. İki ölkə arasında dostluq münasibətlərinin formalaşmasında Azərbaycanda təhsil almış vyetnamlı məzunların xüsusi rol oynadıqları diqqətə çatdırılıb. Bildirilib ki, məhz Heydər Əliyevin 1983-cü ildə Vyetnama səfərindən sonra Azərbaycanda təhsil alan vyetnamlı tələbələrin sayı artıb. Sovet dönəmində Azərbaycanda 5 minədək vyetnamlı təhsil alıb.

Görüşdə Hanoy Ticarət və Turizm Kollecinə Heydər Əliyev Fondunun maliyyə dəstəyi sertifikatı təqdim edilib.

Daha sonra Dünya Barbekü Assosiasiyasının vitse-prezidenti, tanınmış aşpaz David İsrafilov tərəfindən Azərbaycan mətbəxinin nümunələrinin təqdimatı olub.

***

Leyla Əliyeva Hanoyda görmə qabiliyyəti məhdud şəxslər üçün məktəbdə olub.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vyetnama səfəri çərçivəsində Hanoyda Nguyen Dinh Chieu orta məktəbində olub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva məktəbdə yaradılan tədris şəraiti ilə tanış olub.

Burada keçirilmiş görüşdə Fondun ölkəmizdə görmə qabiliyyəti məhdud şəxslərin cəmiyyətə inteqrasiyası və inklüziv təhsil sahəsindəki layihələri barədə məlumat verilib. Heydər Əliyev Fondu və BMT-nin İnkişaf Proqramı arasında görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair əməkdaşlıq sazişinin imzalandığı, bu layihənin görmə qabiliyyəti məhdud insanların cəmiyyətə inteqrasiyasına, informasiya-kommunikasiya vasitələri ilə bilik, məlumat əldə etmək imkanlarının genişləndirilməsinə yönəldiyi qeyd edilib. Görmə qabiliyyəti məhdud uşaqlar üçün Heydər Əliyev Fondunun təşəbbüsü əsasında xüsusi internat məktəbinin nəzdində mətbəə yaradıldığı, burada Brayl əlifbası ilə dərslik və dərs vəsaitlərinin çap olunduğu bildirilib.

Leyla Əliyeva inklüziv təhsilə dəstək çərçivəsində Vyetnamdakı görmə qabiliyyəti məhdud şəxslər üçün orta məktəbə Heydər Əliyev Fondunun maliyyə dəstəyi sertifikatını təqdim edib. Eyni zamanda, diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondu tərəfindən məktəbə görmə qabiliyyəti məhdud uşaqların təhsilinə dəstək məqsədilə bir sıra avadanlıqlar hədiyyə olunacaq.

Qeyd edək ki, 1982-ci ildən fəaliyyət göstərən məktəb görmə qabiliyyəti məhdud uşaqlar üçün nəzərdə tutulub. 1988-ci ildən isə sözügedən məktəbdə görmə qabiliyyəti olan şəxslər də təhsil ala bilirlər. Məktəbdə hazırda 1800 şagird, o cümlədən 145 görmə qabiliyyəti məhdud şəxs təhsil alır.

Müəllim heyəti akademik fənlərin tədrisi ilə yanaşı, həm də inklüziv təhsil modelinin inkişafı ilə məşğul olur. Burada inklüziv təhsil üçün geniş sistem qurulub. Məktəbin missiyası bərabər keyfiyyətli təhsil imkanlarını təmin, müstəqilliyi və cəmiyyətə inteqrasiyanı təşviq etməkdir.

# Leyla Əliyeva Pekin Xarici Dillər Universitetində tələbələrlə görüşüb





### Heydər Əliyev Fondu ilə Pekin Xarici Dillər Universiteti arasında əməkdaşlıq çərçivəsində bir sıra layihələr həyata keçirilib

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Pekin Xarici Dillər Universitetində olub.

AZƏRTAC xəbər verir ki, universitetin prorektoru Gao Qanq və burada Azərbaycan dili üzrə təhsil alan çinli tələbələr ilə görüş zamanı Azərbaycanla Çin arasında əlaqələrin genişlənməsində gənclərin, o cümlədən iki ölkənin təhsil sistemində bu istiqamətdə həyata keçirilən layihələrin rolu qeyd edilib. Bu baxımdan Azərbaycan mədəniyyətini öyrənib tədqiq və təbliğ etməyə maraqlı olan Pekin Xarici Dillər Universitetindəki Azərbaycan dili kafedrasının fəaliyyətinin, universitetdə Azərbaycan dili üzrə kadrların hazırlanmasının əhəmiyyəti diqqətə çatdırılıb. Bildirilib ki, universitetin tədris proqramına Azərbaycan dili ilə yanaşı, Azərbaycan tarixi, mədəniyyəti, ədəbiyyatı fənləri də daxildir.

Heydər Əliyev Fondu ilə Pekin Xarici Dillər Universiteti arasında 10 ilə yaxın davam edən əməkdaşlıq çərçivəsində bir sıra layihələrin həyata keçirildiyi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə 2019-cu ildən Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində (UNEC) distant Çin dili kurslarının təşkil olunduğu diqqətə çatdırılıb.

Görüş zamanı Heydər Əliyev Fondu ilə Pekin Xarici Dillər Universiteti arasında bu il ərzində Anlaşma Memorandumunun imzalanması barədə qərar qəbul edilib.

Daha sonra universitetin Azərbaycan dili kafedrası ilə tanışlıq olub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva kafedranın fəaliyyətinin genişləndirilməsi ilə bağlı nəzərdə tutulan tədbirləri diqqətə çatdırıb. Heydər Əliyev Fondunun müxtəlif sahələr, o cümlədən Azərbaycan mədəniyyətinin tanıdılması üzrə nəşrlərinin Çin dilində çap olunmasının vacibliyi qeyd edilib.

# "Zəkaların mübarizəsi"

## *Olimpiadanın regional mərhələsi üzrə bilik yarışı keçirilib*

Heydər Əliyev Fondu və Elm və Təhsil Nazirliyinin birgə layihəsi çərçivəsində ümumi təhsil müəssisələrinin IX-XI sinif şagirdlərinin iştirakı ilə keçirilən "Zəkaların mübarizəsi" olimpiadasının regional mərhələsi üzrə bilik yarışı baş tutub.

Yarış Bakı şəhəri və Naxçıvan Muxtar Respublikası daxil olmaqla 14 müxtəlif regionda təşkil edilib. Bakı şəhərindən 12 komanda, Naxçıvan MR-dan 12 komanda, bütün regionlardan isə 64 komanda olmaqla, ümumilikdə hər bir sahə üzrə 88 komanda iştirak edib.

Bilik yarışı üzrə finalda iştirak hüququ əldə edən komanda sayı 18, iştirakçı sayı isə 108 nəfər olub.






Olimpiadanın bilik yarışında məktəblilər riyaziyyat, rəqəmsal texnologiyalar, təbiət və humanitar elmlər, mədəniyyət və incəsənət sahələri üzrə sualları cavablandırıblar.

Regional mərhələ üzrə şahmat turnirində 12 müxtəlif regiondan 1 qalib komanda, Bakı şəhərindən 5 ən yaxşı komanda, Naxçıvan MR-dan 1 komanda olmaqla cəmi 90 iştirakçıdan ibarət 18 komanda final mərhələdə iştirak hüququ qazanıb.

Olimpiadanın final mərhələsində aşağıdakı rayon və şəhərlərdən olan komandalar iştirak edəcəklər:

*Bilik yarışı istiqaməti üzrə:* Bakı şəhərinin Xəzər, Nəsimi, Yasamal, Xətai, Nərimanov rayonları, Gəncə, Naxçıvan, Mingəçevir, Şəki şəhərləri, Abşeron, İsmayıllı, Lerik, Saatlı, Bərdə, Qazax, Qusar, Zəngilan, Neftçala rayonları.

*Şahmat turniri üzrə:* Bakı şəhərinin Xətai, Xəzər, Sabunçu, Səbail, Yasamal rayonları, Gəncə, Naxçıvan, Sumqayıt, Şəki şəhərləri, Ağcabədi, Ağsu, Beyləqan, Cəbrayıl, Göyçay, Quba, Masallı, Neftçala, Tovuz rayonları.

"Zəkaların mübarizəsi" olimpiadasının keçirilməsində əsas məqsəd müxtəlif sahələrdə bilik və bacarığı ilə seçilən istedadlı gəncləri aşkar etmək, şagirdlərdə əməkdaşlıq, effektiv ünsiyyət, liderlik keyfiyyətləri, müzakirə mədəniyyəti, qərar vermə, komanda ilə işləmə, analitik və məntiqi düşünmə, planlaşdırma və strategiya qurma bacarıqlarını inkişaf etdirmək, onlar arasında sağlam rəqabət mühitini formalaşdırmaq və region gəncləri arasında ünsiyyət mühitini genişləndirməkdir.

Qeyd edək ki, komanda yarışı formatında keçirilən olimpiada regional və respublika mərhələlərindən ibarətdir. May ayında olimpiadanın final mərhələsi təşkil ediləcək.

# Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri Qarabağ Universitetində olublar

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrindən ibarət heyət Xankəndi şəhərinə səfər çərçivəsində Qarabağ Universitetində olublar.







Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev nümayəndə heyətinə Ermənistanın işğal etdiyi ərazilərdə törətdiyi müharibə cinayətləri barədə məlumat verib. Hikmət Hacıyev bildirib ki, Azərbaycan beynəlxalq prinsiplərə əsaslanaraq özünün ərazi bütövlüyünü və suverenliyini bərpa edib, Qarabağ və Şərqi Zəngəzur artıq yeni inkişaf mərhələsinə qədəm qoyub.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov çıxış edərək qonaqları salamlayıb və ali təhsil ocağının tədris prosesində əldə etdiyi uğurlar, habelə növbəti dövrdə qarşıya qoyulan hədəflərindən bəhs edib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən geniş tikinti-bərpa işləri barədə məlumat verib.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov təqdimatla çıxış edərək işğaldan azad olunan ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları və quruculuq işlərinə dair məlumatları iştirakçıların diqqətinə çatdırıb.

Diplomatik korpusun nümayəndələri sonra Qarabağ Universiteti ilə tanış olublar. Nümayəndələr tədris binası, kitabxana, auditoriya, laboratoriya və sərgi zalına baxış keçirib, həmçinin incəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında musiqi nömrələrini dinləyiblər.

# Həssas yanaşma, vətəndaş məmnunluğu

## Elm və təhsil naziri Sabirabadda vətəndaşları qəbul edib







Aprelin 21-də elm və təhsil naziri Emin Əmrullayev Sabirabad şəhərində vətəndaşları qəbul edib. Qəbulda Beyləqan, İmişli, Saatlı, Sabirabad və Xocavənd sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb. Qəbul zamanı vətəndaşlar xarici diplomların tanınması, sertifikatlaşdırma, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

*Dövlət Proqramı təqaüdçüsü*

# “Azad olunmuş ərazilərimizin bərpasında iştirak etməkdən şərəf duyaram”

Yale Universitetinin tələbəsi

## “Dövlət Proqramı gənclərə ən yaxşı təhsili almaq və ölkəmizə töhfə vermək imkanı qazandırır”

Dünyanın nüfuzlu ali təhsil müəssisələrinə üz tutan gənclərimizin sayı ildən-ilə artır. Tələbələrimizin maraq göstərdiyi ixtisasların seçimi və rəngarəngliyi də diqqəti cəlb edir. Ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələri üzrə gələcəkdə zəngin kadr ehtiyatımız olacaq. Bu gənclərdən biri də hazırda dünya reytinqində ən yaxşı 10 universitet sıralamasında yerləşən ABŞ-nin Yale Universitetinin tələbəsi Aylin Ələkbərlidir. “2022-2028-ci illər üçün Dövlət Proqramı” çərçivəsində təhsilini davam etdirən Aylinlə tanışlığa onun öz sözləri ilə başlayırıq.



- 25 yaşım var, Bakı şəhərində anadan olmuşam. ABŞ-nin Yale Universitetində qrafik dizayn üzrə magistr təhsili alıram. Təhsil hər zaman ailəmiz üçün çox önəmli olub. Atam Hacı Zeynalabdin Tağıyevin bir deyimini tez-tez xatırladır: “Bir oğlana təhsil verməklə təhsilli bir insan qazanırsınız, bir qıza təhsil verməklə isə təhsilli ailə”. Ailəm mənim və bacımın təhsilini hər zaman prioritet hesab edib.

Təhsil həyatımın ilk illərini Bakıdakı 27 nömrəli tam orta məktəbdə keçirmişəm. İlk sinif müəllimim İnarə xanım güclü bir qadın olaraq mənim ilk rol modellərimdən biri olub. 6-cı sinfin sonunda imtahan verərək, Qafqaz Gimnaziyasına təqaüdlə daxil oldum. Müəllimlərim mənə çox dəstəkçi idilər. Məktəb mənə həm yerli, həm də beynəlxalq yarışmalarda iştirak etmək üçün bir çox fürsət təqdim edirdi. Dərslərin ingilis dilində keçirilməsi mənim dil bacarıqlarımı gücləndirdi.

*- Azərbaycandan ABŞ-yə uzanan yol. Bu yolda kimlərin sizə dəstəyi olub?*

- Ali təhsilimə əvvəlcə Azərbaycan-Fransız Universitetində (UFAZ) “Geofizika mühəndisliyi” ixtisasında başladım. Bu, inanılmaz bir icma idi. Bir çox ağıllı və istedadlı insanların arasında olmaq məni çox ilhamlandırırdı. Universitetimiz Qərb universitetləri ilə sıx əlaqəli olduğu üçün məzun olanların çoxu xaricdə magistr təhsili almağa və ya beynəlxalq şirkətlərdə işləməyə gedirdi. Universitet daxilində və xaricində bir neçə hakaton və yarışmada iştirak etdim. Adətən 4 nəfərlik komandamız olurdu və mənim rolum komandanın dizayneri idi. İstedadlı proqramçı komanda yoldaşlarımla birlikdə aşağıdakı nəticələri əldə etmişik: “Aquahack”da 3-cü, “Baku Food Hackathon”da 2-ci, “Genderhack”da 1-ci yerlər. “Genderhack”da iştirak etdiyimiz layihə ilə Almaniya və Fransa səfirlikləri tərəfindən təşkil edilən gender bərabərliyi mükafatının finalçılarından oldum. 2022-ci ildə “Perspektywy Women in Tech” təqaüdünü qazandım və bu, mənə Varşavaya səfər edib texnologiya konfransında iştirak etmək imkanı verdi.

Bu tədbirlərdə iştirakım mənim dizayner olaraq yetişməyimə kömək etdi. Amma bu yolda həyatımda böyük rol oynayan müəllimlərim də olub. UFAZ-da ingilis dili müəllimim Şəbnəm xanım mənə ilk təkanı vermişdi. O, mənim fotoqrafiya və dizayna marağımı bilirdi və mənə bir fotoqrafiya kitabı hədiyyə etdi. Bu, məni çox ilhamlandırdı və marağımı daha ciddi şəkildə davam etdirməyə başladım. “UFAZ Arts Club”u yaratdım, burada tədbirlər və seminarlar təşkil edirdim.

2020-ci ildə, COVID-19 dövründə UFAZ-ın PR meneceri Nəzrin Mirzəyevanın redaktəsi ilə “Lucent” adlı tələbə jurnalını yaratmağa və dizayn etməyə qərar verdim. Bu jurnal UFAZ tələbələrinin 40-dan çox esse, şeir və sənət əsərlərini özündə cəmləşdirir. Bütün bu təcrübələr mənim xaricdəki universitetlərə qəbulumda böyük rol oynadı. Beləliklə, UFAZ-ın işçiləri, tələbələri və müəllimləri ABŞ-yə təhsil yolumda mənə böyük dəstək oldular.

*- “2022-2028-ci illər üçün Dövlət Proqramı” sizin üçün nə kimi imkanlar açdı, proqramın əhəmiyyəti barədə nə deyə bilərsiniz?*

- Yale Universiteti mənə təhsil haqqı və sağlamlıq sığortası üçün tam təqaüd verir. Dövlət Proqramı mənə yaşayış xərcləri, viza və uçuş biletləri ilə kömək edir. Burada yaşamaq dövlət təqaüdünün dəstəyi olmadan mümkün olmazdı. Bu proqram gənclərə ən yaxşı təhsili almaq və ölkəmizə töhfə vermək imkanı qazandırır.

*- Xaricdə təhsil həyatınız necə keçir? Adaptasiya prosesi çətin olmadı ki...*

- 2020-ci ildə “Erasmus” proqramı ilə bakalavr təhsilimin bir semestrini İspaniyada keçirmişdim, lakin COVID səbəbindən bundan tam yararlana bilmədim. Hazırda ABŞ-dəki təhsil həyatımdan çox məmnunam. Burada beynəlxalq bir mühit var və dünyanın hər yerindən fərqli insanlarla tanış ola bilirsiniz.

Adaptasiya prosesi zaman alsa da, orada yalnız siz yeni deyilsiniz, hamı yenidir, buna görə mədəniyyətə birlikdə uyğunlaşırıq. Mən Çindən olan otaq yoldaşım Echo ilə birlikdə mədəniyyətlərimizdə bəzi kiçik oxşarlıqları kəşf edirik. O, artıq çayı armudu stəkandan içir. Mənim şəhərim olan Nyu Haven Nyu-Yorka çox yaxındır, buna görə tez-tez ora gedirəm. Və əlbəttə ki, Nyu-Yorkda istədiyiniz hər əyləncə, muzey, təbdirlər əlçatandır.

*- Yale Universitetinın tədris mühiti barədə nə deyə bilərsiniz? Sizin üçün maraqlı olan təcrübələr nələr oldu?*

- Təsəvvür edə biləcəyiniz kimi, bu, çox intensiv bir proqramdır. Dizaynerlər olaraq hər birimiz öz studiya məkanımıza sahibik və günümüzün əksər hissəsini studiyada işləyərək keçiririk. Müəllimlərimiz dizayn sənayesində tanınan, uğurlu fərdlərdir. Universitetin digər fakültələrindən dərslər almaq üçün azadlığımız var. Ən çox bəyəndiyim dərslərdən biri “Mechanical Artifact” adlanır. Burada biz astronavtların özləri ilə MIT professorları tərəfindən tikilən kosmos yaşayış mühitlərinə aparacaqları əşyalar hazırlayırdıq. Proqramımın ən dəyərli təcrübələrindən biri isə 2023-cü ilin noyabr ayında hazırladığım animasiyanın “Times Square”-də 4 gün ərzində nümayiş olunması oldu.

*- “Graphic Design” sizin üçün nə dərəcədə maraqlı ixtisas sahəsidir? Seçdiyiniz ixtisas dünyada nə dərəcədə prioritetdir?*

- Dizayn həmişə aktual olacaq bir sahədir. Bütün sənaye sahələrində buna ehtiyac var, çünki insan və məhsul, yaxud insan və məkan arasında əlaqə qurmaq üçün dizayna ehtiyac duyulur. Sənayedə rolundan başqa, dizayn rəsm, heykəltəraşlıq və s. kimi bir incəsənət formasıdır. Mən həmçinin çox animasiya edirəm, bir sənətkar olaraq mənim üçün bu, özümü ifadə etməyin ən asan yoludur.

*- “Graphic Design” mütəxəssisi kimi Azərbaycanda nə kimi sahələrdə töhfə verməyi düşünürsünüz?*

- Mən Azərbaycanda daha eksperimental qrafik dizayn üçün bir məkan yaratmaq və ümumiyyətlə, cəmiyyətdə sənətə olan marağı artırmaq istəyirəm. Bu, ali təhsil müəssisələrində qrafik dizayn üzrə tədris proqramının islahatından başlaya bilər. Mən əldə etdiyim bilikləri Azərbaycandakı tədris proqramına gətirmək istəyirəm.

*- Böyük Zəfərdən sonra Qarabağda infrastruktur, bərpa-quruculuq işləri aparılır. Qrafik dizayner olaraq bu proseslərdə yer almaq istərdinizmi?*

- Qrafik dizayn şəhərsalma sahəsində mühüm rol oynayır, çünki şəhər inkişaf layihələri barədə mürəkkəb məlumatları vizual şəkildə çatdırır, yol tapma sistemləri və nişanlar vasitəsilə istiqamətlənməni yaxşılaşdırır, icma ilə əlaqələrin qurulmasına kömək edir və nəhayət, şəhər mühitinin estetikası və istifadəçi təcrübəsini formalaşdırır, sakinlər və ziyarətçilər üçün daha əlçatan və zövqlü edir. Mən işğaldan azad olunmuş ərazilərimizin bərpasında iştirak etməkdən şərəf duyaram.

*- Gələcək hədəfləriniz barədə...*

- Son iki ildə ABŞ, İngiltərə, Şotlandiya, Meksika, Bosniya və Herseqovina, Rusiya və Malayziyada müxtəlif film festivallarında və qrup sərgilərində iştirak etmişəm. İşimi daha çox ölkələrdə, yaxşı tanınmış tədbirlərdə və fərdi sərgilərdə nümayiş etdirməyə davam etmək istərdim. Əlbəttə, bunun üçün sənətimi daha da inkişaf etdirməliyəm. Azərbaycanın və xarici ölkələrin tanınmış brendləri və şirkətlərlə işləmək istəyərdim. Gələcək fürsətləri səbirsizliklə gözləyirəm.

*- Sizə təhsil həyatınızda bol uğurlar arzulayırıq!*

**Oruc MUSTAFAYEV**

# Emin Əmrullayev Türk Hava Qurumu Universitetinin rektoru ilə görüşüb



Aprelin 22-də elm və təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikasının Türk Hava Qurumu Universitetinin rektoru Rahmi Er ilə görüşüb.

Görüş çərçivəsində iki ölkənin ali təhsil müəssisələri arasında cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

# Təkrar ali təhsil alanlar tələbə kreditindən yararlana bilərlərmi?

## TTKF-dən açıqlama

Fasiləsiz təhsil imkanlarını dəstəkləmək məqsədilə Təhsil Tələbə Krediti Fondu (TTKF) arzu edən şəxslərə təhsil krediti ayırır. Bəs əlavə təhsil üçün də təhsil tələbə kreditindən yararlanmaq mümkündürmü? Fonddan "Azərbaycan müəllimi"nin sorğusuna cavab olaraq bildirilib ki, əlavə təhsilin yalnız təkrar ali, orta ixtisas və yüksək texniki peşə təhsili" istiqaməti üzrə təhsil alan şəxslərə təhsil krediti ayrılır: "Bu istiqamət üzrə təhsil müəssisələrinə qəbul iki yolla mümkündür: Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil olunan qəbul imtahanı vasitəsilə və ya müsabiqədənkənar qəbul yolu ilə.




**Əlavə təhsil almaq üçün DİM-in təşkil etdiyi imtahanlardan keçənlər üçün bu şərt əsasdır**

Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi qəbul imtahanı vasitəsilə qəbul olan tələbələr ilk təhsil müddətində təhsil tələbə kreditindən (TTK) istifadə etməyiblərsə, o zaman təkrar ali, orta ixtisas və ya yüksək texniki peşə təhsili aldığı dövrdə bu kreditlərdən yararlana bilərlər. Bu halda kreditlərin təqdim olunma şərtləri əvvəlki qaydalarla eyni qalır. I kursun I semestrində tələbənin qəbul balı, növbəti semestrlərdə isə akademik göstəriciləri əsas götürülür. Ali və orta ixtisas təhsili alan tələbələrin ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) minimum 71 bal olmalıdır. Peşə təhsili alan tələbələrin aralıq qiymətləndirmə göstəricisi 71-dən aşağı olmamalıdır. Eyni zamanda, tələbənin akademik borcunun olmaması əsas şərtlərdəndir.

**Müsabiqədənkənar qəbul olunub əlavə təhsil alanlar TTK üçün ikinci semestri gözləməlidirlər**

Müsabiqədənkənar şəkildə təhsil müəssisəsinə qəbul olunan tələbələr standart təhsil tələbə kreditindən yararlanmaq istədikdə birinci semestrdə TTK-dan istifadə edə bilmirlər. Lakin birinci semestrin sonunda tələbənin ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) 71 və daha yüksək olarsa, həmin tələbə ikinci semestrdən etibarən standart TTK-dan yararlanmaq hüququ əldə edir.

**Geri ödəniş məzun olduqdan sonra başlanır**

Əlavə təhsil üçün ayrılan kreditin geri ödənişi də təhsil müddəti başa çatdıqdan sonrakı dövrdən hesablanır: "Təhsil tələbə krediti sistemi təhsil alanlara maddi dəstək göstərməklə təhsilin əlçatanlığını artırır. Kreditin geri ödənişi yalnız məzun olduqdan sonra başlanır. Tələbə təhsil aldığı müddət ərzində də rəsmi iş yeri ola bilər. Lakin təhsil tələbə krediti qaydalarına əsasən, normativ təhsil müddətində tələbənin rəsmi iş yeri olsa belə, bu dövr üçün TTK-ya faiz hesablanmır".

Əlavə təhsil alanlar üçün də güzəşt dövrü var: "Tələbəyə məzun olduqdan sonra əmək və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün iki il güzəşt dövrü verilir. Bu müddət ərzində məzunun məşğulluğu müəyyən edilməzsə, ondan kreditin geri qaytarılması tələb olunmur və bu dövrdə faiz hesablanmır. Məzun əmək fəaliyyətinə başladıqda isə bank tərəfindən təqdim edilən ödəniş cədvəlinə uyğun olaraq 10 il müddətində kreditin geri qaytarılması prosesi başlayır. Hər bir məzuna geri ödəmə mexanizmi bərabər hissələrə bölünmüş qrafiklə təqdim olunur".

Fonddan bildirilib ki, təhsil müddətindəki akademik nəticələrə əsasən, kreditin faizsiz və ya güzəştli qaydada qaytarılması da mümkündür. Belə ki, təhsilin normativ müddətində bütün tədris semestrləri üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) 91 və yuxarı olan tələbələr sosial TTK üzrə kreditin 50, standart TTK üzrə isə 25 faizindən azad olunurlar: "Bu mexanizm tələbələrin təhsil müddətində və məzun olduqdan sonra maliyyə yükünü azaltmaqla onların əmək bazarına inteqrasiyasını asanlaşdırır və rəqabətqabiliyyətini artırır".

Qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli Qərarı ilə təsdiqlənmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi" Qaydalarının 1.3-cü bəndinə əsasən, əlavə təhsil ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə, kadrların təkmilləşdirilməsi, təkrar ali, orta ixtisas və yüksək texniki peşə təhsili, dərəcələrin yüksəldilməsi və yaşlıların təhsili istiqamətlərini əhatə edir.

**Ruhiyyə DAŞSALAHLI**

# "AUTİZM – TƏDQİQATDAN TƏCRÜBƏYƏ"

## Nazir müavini Firudin Qurbanov autizmlə bağlı beynəlxalq elmi konfransda iştirak edib






Aprelin 24-də "Autizm - tədqiqatdan təcrübəyə" adlı beynəlxalq autizm konfransının rəsmi açılış mərasimi keçirilib.

"Birgə və Sağlam" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən konfransın məqsədi beynəlxalq mütəxəssislərin təqdimatında autizm haqqında müasir elmi araşdırmaları, həmçinin autizmə effektiv müdaxilə metodları, autizmli şəxslərin inklüziv təhsilə cəlb edilməsi və onlar üçün dayanıqlı məşğulluq imkanları haqqında yenilikləri əlaqədar sahələrdə çalışan yerli mütəxəssislərin diqqətinə çatdırmaq, həmçinin autizm haqqında maarifləndirmə aparmaqdır.

Açılış nitqi ilə qonaqları salamlayan "Birgə və Sağlam" İctimai Birliyinin sədri Aytən Eynalova konfransın əhəmiyyətini vurğulayaraq bu tədbirin artıq dördüncü dəfə keçirildiyini diqqətə çatdırıb və tədbirin təşkilində dəstək göstərən hər kəsə təşəkkür edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışı zamanı qeyd edib ki, övladlarına autizm diaqnozu qoyulmuş ailələrin sosial qayğılarının azaldılması, valideynlərin lazımi səriştələr qazanması məqsədilə dövlət qurumları tərəfindən bir sıra tədbirlər həyata keçirilir və bu tədbirlərin ölkə miqyasında yayılması üçün xüsusi səylər göstərilir.

Açılış tədbirində çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov autizmli uşaqların məktəbəqədər və məktəb yaşında ümumi təhsil sisteminə cəlb edilməsinin onların inkişafına əhəmiyyətli dərəcədə təsir göstərdiyini diqqətə çatdırıb. Nazir müavini əlavə edib ki, təhsil sisteminin vəzifəsi autistik spektr pozuntusu olan uşaqlar daxil olmaqla atipik inkişaf edən uşaqların imkanlarını və məhdudiyyətlərini nəzərə alaraq onların təlim və tərbiyəsini təşkil etməkdir.

Autizmli uşaqların inklüziv təhsilə cəlb edilməsi, həmçinin təhsilverənlərin bu sahədə peşəkar inkişafı üçün Elm və Təhsil Nazirliyinin həyata keçirdiyi tədbirlərdən bəhs edən nazir müavini bildirib ki, 2020-ci ildən başlayaraq nazirliyin Fəaliyyət Planına əsasən, inklüziv təhsilin təşkil edildiyi ümumi təhsil müəssisələrinin şəbəkəsi Bakı, Gəncə, Sumqayıt, Mingəçevir şəhərləri ilə bərabər regionlarda da genişləndirilərək sayı 69-a çatdırılıb. İnklüziv təhsil sahəsində bilik və bacarıqların artırılması məqsədilə müəllimlər üçün tədris proqramları, valideynlər üçün isə öyrədici metodiki vəsaitlər hazırlanıb. Ümumi təhsil müəssisələrində inklüziya mədəniyyətini formalaşdırmaq üçün pedaqoji və inzibati heyət, o cümlədən şagird və valideynlərlə maarifləndirici görüşlər keçirilib.

**Firudin QURBANOV**

"Autizm spektr pozuntusu olan uşaqların erkən yaşlarda, xüsusilə məktəbəqədər və məktəb yaşında təhsil sisteminə cəlb olunması onların inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu, xüsusilə onların nitq və ünsiyyət bacarıqlarının, sosiallaşma qabiliyyətlərinin və intellektual səviyyələrinin artması baxımından böyük rol oynayır.

Digər inkişaf geriliyi olan uşaqlardan fərqli olaraq, autizm spektr pozuntusu olan uşaqların əksəriyyəti ümumi təhsil proqramı çərçivəsində uğurla təhsil ala bilirlər. Onlar sağlam eşitmə və görmə qabiliyyətinə, yaxşı yaddaşa və vizual qavrama bacarıqlarına malik olduqları üçün akademik materialları mənimsəməkdə çətinlik çəkmirlər.

Bəzi autizmli uşaqlar riyaziyyat sahəsində xüsusi uğurlar qazanır, digərləri isə əgər motor bacarıqlarla bağlı məhdudiyyətləri yoxdursa, rəsmdə çox gözəl nəticələr göstərə bilirlər. Onların bəziləri spesifik maraq sahələrinə malikdirlər və bu sahələrdə məktəb proqramı çərçivəsində yüksək nailiyyətlər əldə edirlər:

Həqiqətən də, istər tipik inkişaf edən, istərsə də qeyri-adi inkişaf xüsusiyyətləri olan uşaqların təhsili diqqət mərkəzində olmalıdır. Təhsil sisteminin əsas vəzifəsi autizm spektr pozuntusu olan uşaqlar da daxil olmaqla, bütün uşaqların imkan və məhdudiyyətlərini nəzərə alaraq onların təlim-tərbiyəsini təşkil etməkdir.

Autizmli uşaqların inkişafı üçün ən yaxşı yol təlim və xüsusi dəstək proqramlarıdır. Bu sahədə düzgün yanaşma, tədris və sosial adaptasiya proqramları bu fərqli uşaqların cəmiyyətə inteqrasiyasını təmin etmək üçün əsas vasitədir".

Firudin Qurbanov çıxışının sonunda dünya təcrübəsinə əsasən yalnız birgə sistemli fəaliyyət nəticəsində, vahid kompleks tədbirlər vasitəsilə autizm xəstələrinin əlilliyini əhəmiyyətli dərəcədə azaltmağın mümkünlüyünü vurğulayıb.

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev öz növbəsində inklüziv təhsil istiqamətində ali təhsil müəssisələrinin üzərinə düşən mühüm roldan danışıb və bildirib ki, bu rol həm kadr hazırlığı, həm də artıq əmək bazarında fəaliyyət göstərən şəxslərə əlavə bilik və bacarıqların verilməsi baxımından əhəmiyyətlidir. Bakı Slavyan Universitetində 3 ildir ki, həyata keçirilən "İnklüziv təhsildən inklüziv cəmiyyətə" layihəsindən söz açan rektor layihənin əsas məqsədinin müəllim hazırlığı prosesində tədris məzmunu və resurslarına inklüziv təhsil prinsiplərinin inteqrasiyasının olduğunu diqqətə çatdırıb.

Çıxış edən "Kapital Bank"ın İdarə Heyətinin üzvü Fərid Hidayətzadə "Kapital Bank" tərəfindən təhsil sahəsində həyata keçirilən əhəmiyyətli layihələrdən danışıb və konfransın işinə uğurlar arzulayıb.

Digər qonaqlar konfransın mövzusu istiqamətində öz sahələrində görülən işləri diqqətə çatdırıblar.

Rəsmi açılış hissəsindən sonra "Birgə və Sağlam" İctimai Birliyinin "Mavi ürəklər" inklüziv musiqi qrupu konsert proqramı ilə çıxış edib.

Qeyd edək ki, 23-25 aprel tarixlərini əhatə edən konfransın ilk günü Bakı Slavyan Universitetində autizmlə bağlı müxtəlif mövzulara həsr olunan 10 praktik seminar təşkil edilib. Konfransda ABŞ, İsveç, Norveç, İrlandiya və Türkiyədən dəvət olunmuş tədqiqatçılar, həmçinin yerli mütəxəssislər geniş təqdimatlarla çıxış ediblər, həmçinin ekspertlərlə görüşlər keçirilib.

Konfrans Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, TƏBİB, İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Medianın İnkişafı Agentliyi, Heydər Əliyev Fondu, Heydər Əliyev Mərkəzi, "Regional İnkişaf" İctimai Birliyi, NEQSOL Holding, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Xəzər Media Mərkəzi və Azərbaycan Pediatriya Cəmiyyətinin tərəfdaşlığı, "Azərbaycan Hava Yolları" QSC, bp şirkəti, "Kapital Bank" və "SARDA Group"un sponsorluğu, "Atashgah" İncəsənət Mərkəzi, IBAO, DePromo, Özsüt, "İnklüziv İnkişafa Dəstək Mərkəzi", "Kashalata" kafe, PM Akademiya, "Birlik" İctimai Birliyi, "Ümid var" İnklüziv Yaradıcılıq Birliyi və "SBS" şirkətinin dəstəyi ilə keçirilib.

# BANM-də beynəlxalq elmi konfransların açılışı olub




**Firudin QURBANOV:**

## “Beynəlxalq elmi tədbirlər ölkəmizdə elmin inkişafına və gənclərin elmi fəaliyyətə marağının artmasına böyük töhfə verir”



Aprelin 23-də Bakı Ali Neft Məktəbində (BANM) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilmiş Tələbə və Gənc Tədqiqatçıların VI Beynəlxalq Elmi konfranslarının açılış mərasimi keçirilib.

BANM-in rektoru Elmar Qasımov tədbirin açılışında bildirib ki, artıq altı ildir keçirilən bu beynəlxalq konfranslara maraq ildən-ilə artır. Vurğulanıb ki, konfransların əsas məqsədi tələbə və gənc tədqiqatçıların elmi fəaliyyətini stimullaşdırmaq, onları beynəlxalq elmi ictimaiyyətə inteqrasiya etdirmək, eləcə də müasir elmi texnologiyalar sahəsində fikir və təcrübə mübadiləsi üçün platforma yaratmaqdır. Rektor, həmçinin, BANM-in gənc alimlərin yetişdirilməsinə xüsusi önəm verdiyini qeyd edib.

Tədbirdə iştirak edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov beynəlxalq elmi tədbirlərin ölkəmizdə elmin inkişafına və gənclərin elmi fəaliyyətə marağının artmasına böyük töhfə verdiyini vurğulayıb. Nazir müavini BANM-in müasir texnologiyalar və avadanlıqlarla təchiz edildiyini, 102 Prezident təqaüdçüsündən 33-nün BANM tələbəsi olduğunu qeyd edib. Onun sözlərinə görə, bu, sözügedən təhsil müəssisəsinin yüksək təhsil səviyyəsini və tələbələrinin potensialını nümayiş etdirir.

Nazir müavini gənclərin elmi-tədqiqatlara cəlb olunmasını yüksək dəyərləndirərək qeyd edib ki, hazırda yaradıcı şəxslərin yaradıcılıq fəaliyyəti müasir sosial inkişafın əsas mənbəyidir. Buna görə də geniş mənada yaradıcılıq bu gün inkişaf mexanizmi və ya inkişafa aparan qarşılıqlı təsir kimi qəbul edilir, çünki bu gün dinamizm, sosial və elmi-texniki inkişafın uğuru yalnız yaradıcı şəxslərin yaradıcılıq fəaliyyətinin səmərəliliyindən asılıdır.

SOCAR-ın İnsan kapitalının inkişafı və funksional mükəmməllik departamentinin rəisi Tural Məmmədov da tədbirdə çıxış edərək BANM-in son illərdə qazandığı uğurları xüsusi vurğulayıb.

Eləcə də Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Əminağa Sadıqov, Elm və Təhsil Nazirliyinin Neft-Kimya Prosesləri İnstitutunun direktoru Vaqif Abbasov çıxış ediblər. Qeyd olunub ki, bu cür beynəlxalq konfranslar gənclər üçün əvəzolunmaz təcrübə sahəsi yaradaraq elmi müzakirələrə qatılmalarına və biliklərini artırmalarına imkan verir, bununla da onları gələcəkdə daha güclü alimlər və mütəxəssislər kimi yetişdirir.

Daha sonra BANM-in tədris və elmi işlər üzrə prorektoru Sevda Zərgərova konfrans haqqında məlumat verib. Qeyd olunub ki, builki konfranslara yerli və xarici gənc tədqiqatçılardan 340 müraciət daxil olub. Müraciətlərdən 300-ü müsbət rəy alıb ki, bu da ümumi müraciətlərin 80 faizini təşkil edir. BANM-dən isə 198 tələbə və gənc tədqiqatçı bu mühüm elmi tədbirə qoşulub. Beynəlxalq iştirakçılar tərəfindən təqdim olunan 19 müraciətdən 18-i qəbul olunub. Bu il əvvəlki illərlə müqayisədə rekord sayda, 12 müxtəlif ölkədən — ABŞ, Böyük Britaniya, Portuqaliya, Finlandiya, Almaniya, Macarıstan, İtaliya, Polşa, Sinqapur, Pakistan, Səudiyyə Ərəbistanı, Özbəkistan və Rusiya kimi ölkələrin ali təhsil müəssisələrinin nümayəndələri iştirakçılar arasında yer alıblar.

Qeyd edək ki, Tələbə və Gənc Tədqiqatçıların VI Beynəlxalq Elmi konfransları “Dayanıqlı kimya və kimya mühəndisliyinə doğru”, “İNFOTECH 2025” və “Neft-qaz geologiyası və mühəndisliyi” mövzularını əhatə edir.

# Azərbaycan təcrübəsi əsasında Özbəkistanda STEAM Mərkəzi qurulub



## Nazir müavini Mərkəzin açılışında iştirak edib

Elm və təhsil nazirinin müavini Həsən Həsənli Özbəkistan Respublikasının Daşkənd şəhərində Azərbaycan dövlətinin dəstəyi ilə yeni yaradılmış STEAM Mərkəzinin açılış mərasimində iştirak edib.



Abdulla Avloni adına Milli Pedaqoji Ustalıq İnstitutunda Azərbaycan təcrübəsi əsasında yaradılmış STEAM Mərkəzinin açılışında çıxış edən nazir müavini Özbəkistan ilə bu istiqamətdə birgə layihələrin reallaşdırılması və təcrübə mübadiləsinin vacibliyini vurğulayıb.

Özbəkistan Respublikasının məktəbəqədər və ümumi təhsil naziri Hilola Umarova çıxış edərək STEAM sahəsində Azərbaycanın təcrübəsini yüksək qiymətləndirib, bu istiqamətdə əməkdaşlığın genişləndirilməsinin və ortaq təşəbbüslərin gerçəkləşdirilməsinin hər iki ölkənin təhsil sistemləri üçün faydalı olacağını qeyd edib.

Qeyd edilib ki, ümumilikdə 9 laboratoriya, görüş otaqları və inzibati ofislərdən ibarət olan Mərkəzdəki mövcud şərait təhsildə müasir imkanların və innovasiyaların tətbiqi baxımından mühüm rol oynayacaq. Bu vasitələrlə məktəbəqədər və ibtidai sinif şagirdlərinin yaradıcı düşünmə bacarıqları layihə əsaslı öyrənmə qurğuları vasitəsilə inkişaf etdiriləcək.

Səfər çərçivəsində nazir müavini Daşkənddə yerləşən Abdulla Avloni adına Milli Pedaqoji Peşəkarlıq İnstitutuna da baş çəkib, buradakı ekspozisiyalar və memorial muzeylə tanış olub, həmçinin institutun kitabxanasını və tədris laboratoriyalarını ziyarət edib.

## Azərbaycan Memarlıq və İnşaat Universiteti - 50

# AzMİU-da “Dizayn həftəsi”

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) “Dizayn həftəsi” idi. Odur ki, universitet həyatı daha da canlanmışdı. Qonaq-qaralı keçən “Dizayn həftəsi”ndə “Azərbaycan müəllimi” də iştirak etdi. Məlumat üçün bildirək ki, universitetin 50 illik yubileyinin qeyd edildiyi bu il Dizayn fakültəsinin yaranmasından da 1 il ötür. Odur ki, Dizayn fakültəsinin kafedralarının hər biri - Qrafika və media, Təsviri incəsənət, Mühit dizaynı kafedraları öz nailiyyətlərini nümayiş etdirib. Sadəcə Dizayn fakültəsinin keçdiyi 1 ilin hesabatını vermədilər, “Dizayn” ixtisasının tədris edildiyi ötən 26 illik böyük təcrübəni sərgilədilər. Aprelin 21-də start götürən dizayn həftəsinin açılışında AzMİU və ali təhsil müəssisələrinin rəhbərliyi, ictimai-siyasi xadimlər, professor-müəllim heyəti və tələbələr iştirak ediblər. Rektor professor Gülçöhrə Məmmədova qonaqları salamlayaraq, AzMİU-nun dizayn sahəsindəki peşəkar yanaşmasını və təhsil keyfiyyətini diqqətə çatdırıb, tələbələrin yaradıcı potensialının gücləndirilməsi və dizayn təhsilinin cəmiyyətdə daha çox tanınması istiqamətində atılacaq addımlar barədə fikirlərini bölüşüb. Rektor bu tədbirin həm tələbələrin inkişafına, həm də dizaynla bağlı qlobal trendlərin Azərbaycanda daha çox tanınmasına böyük töhfə verəcəyini qeyd edib. Dizayn fakültəsinin dekanı dosent Fərid Kərimov, Azərbaycan Memarlar İttifaqının sədri, AzMİU-nun Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrasının müdiri professor Elbay Qasımzadə, Xalq rəssamı, Əməkdar incəsənət xadimi, professor, ADMİU-nun Dizayn və dekorativ-tətbiqi sənət kafedrasının müdiri Arif Əziz, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı professor Natiq Əliyev dizayn sahəsində kadr hazırlığı prosesinə AzMİU-nun verdiyi töhfəyə diqqət çəkərək “Dizayn həftəsi”nin işinə uğurlar arzulayıblar.





### Tələbələr dizaynda öyrəndiklərini rəsm və fotolarla göstərdilər

“Dizayn həftəsi”nin ən maraqlı hissəsi dizayn istiqamətləri üzrə tələbə işlərindən ibarət sərgilərin təqdimatı olub. Sərgilərdə AzMİU-nun Təsviri incəsənət, Qrafik və media dizaynı, Mühit dizaynı kafedralarının tələbələrinin əl işləri nümayiş olunub, həmçinin tanınmış fotoqraf Ziya Alisoyun fərdi fotosərgisi təqdim edilib. Sərgilər tələbələrin yaradıcı qabiliyyətlərini nümayiş etdirmək və dizayn sahəsindəki ən yeni trendləri göstərmək üçün mükəmməl bir platforma olub.

Əl işləri sərgilənən tələbələrdən biri Fidan Abdullayeva çox xoşbəxt görünür: “Birinci semestrdəki işimdir. “Hər dadı ilə xoşbəxtlik” sloqanı ilə hazırladığım bu iş insana xoşbəxtlik verir”.

Simuzər Abbasovanın isə 2 işi sərgilənib. “Nuş” konfet şirkətinin “Süfrəniz şirin olsun” sloqanını seçdiyi məhsul “Şipşirin” konfetləridir. Reklam etdiyi xəyali şirkətin xəyali məhsulu ilə sərgidə yer alan S.Abbasova da məmnundur.

Əli Rüstəmzadə III kurs tələbəsidir. “Dizayn” ixtisası üzrə təhsil alır: “Hər hansı problemi qoyur, onunla bağlı fikirlərimizi deyir, təkliflərimizi hazırlayır, onun əsasında da öz işimizi təqdim edirik. Firma üslubunda hazırladığımız işlər üzrə bizə ballar yazılır. Sərgilərdə, müsabiqələrdə iştirak etmişəm və bu, məni çox qürurlandırır. İşlərim fərqlənir və müəllimlərim onları sərgiləmək üçün seçərkən tərəddüd etmirlər”.

Vüsalə Orucova uşaqlıqdan jelibona olan sevgisini kurs və sinif işində əks etdirib: “Valideynlərim jelibon yeməyimə qarşı çıxırdılar. Mən öz kurs işimdə tərkibində zərərli maddələr olmayan, müxtəlif meyvələrin qarışığından hazırlanmış bir məhsul hazırladım”.

İlk dəfə qatıldığı sərgidə 1 işlə təmsil olunub və bu, müəlliminin sayəsindədir: “Qrafik müəllimim Firuzə Bədəlovanı çox sevirəm. Bu istiqamətdə uğurlarım da məhz onun sayəsindədir”.

Sərgidə AzMİU-nun “Dizayn” ixtisası üzrə IV kurs tələbəsi Ziya Alısoyun fotoları da yer alıb: “Uşaqlıqdan foto və videolar çəkirdim, çox həvəsliydim. Artıq 4 ildir ki, peşəkar fotoqraf kimi məşğul oluram. İlk dəfə fotolarım sərgilənir və bu sərgidə fərqli vaxtlarda dünyanın tam fərqli regionlarında - Avstriyadan tutmuş Türkiyəyə kimi, o cümlədən Azərbaycanın fərqli yerlərində - Lənkərandan tutmuş Qubaya, Bakıya qədər hər yerdə çəkilmiş şəkil var. 28 fotom sərgilənir və böyük bir məmnuniyyət hiss edirəm. Ümid edirəm, növbəti sərgimi daha böyük bir yerdə, daha böyük miqyasda keçirəcəyəm. Mən artıq işləməyə də başlamışam. Həm dizayner, həm də marketinqini həyata keçirdiyim bir iş yerim var”.

### “Sərgiyə gələn hər kəs tələbələrimizin inkişafını görür”

AzMİU Mühit dizaynı kafedrasının müdiri, əməkdar dizayner Yeganə Hacıyeva deyir ki, artıq 26 ildir mühit dizaynı bir ixtisas kimi tədris edilir. Həm bakalavriat, həm də magistratura səviyyəsində həyata keçirilən tədris prosesi uğurla davam etdirilir.

Y.Hacıyeva deyib ki, sərgiyə 500-dən artıq tələbə öz işini təqdim edib və onların arasından 50-dən çox iş seçilib: “Bu işlərin hamısı kurs layihəsidir, sənəddir. Uğurlu layihələrin müəllifləri qiymətləndirmə imtahanlarından keçirlər”.

Qrafik və media dizaynı kafedrasının müdiri Təranə Bəkirova qeyd edir: “Bu sərgi qrafik dizaynın hansı istiqamətdə inkişaf etdiyini, aktual problemləri necə əks etdirdiyini görmək məqsədi daşıyır.

Məqsədimiz fəzada qrafik dizaynın necə göründüyünü, necə qavranıldığını göstərməkdir. Bu baxımdan tələbələr də məkanlarda informasiyanın qrafik dillə müşahidəçiyə necə çatdırılması yollarını öyrənirlər”.

Təsviri incəsənət kafedrasının müdiri, baş müəllim Pərviz Cəfərovun sözlərinə görə, kafedrası, sadəcə dizayn ixtisası üzrə deyil, memarlıq və şəhərsalma ixtisasları üzə kadr hazırlığında da iştirak edir: “Lakin ən çox dərslərimiz dizayn ixtisasındadır. Ona görə də bu istiqamət üzrə proqramımıza daha çox rəngarənglik qata bilirik”.

Rəngkarlıq üzrə 100-ə yaxın, rəsm üzrə isə 30 nəfərə qədər tələbənin qatıldığı sərgidə nümayiş olunan işlər həm də 3 semestr ərzində Təsviri incəsənət kafedrasının tədris etdiyi fənlər üzrə tələbələrin nəticələridir.

Dizayn fakültəsinin dekanı Fərid Kərimov bildirib ki, bu tədbirlə əldə etdiyimiz nailiyyətləri, topladığımız təcrübəni dizayn tədris edən başqa universitetlərlə də paylaşmaq istədik. Məqsədimiz odur ki, biz də onların təcrübəsini öyrənək, nailiyyətlərini müzakirə edək, fikir mübadiləsi aparaq.

F.Kərimov “Azərbaycan müəllimi”nə bildirib ki, bakalavr və magistratura səviyyəsində “Dizayn” ixtisası 3 dildə tədris edilir: “Bakalavr səviyyəsində ikili diplom proqramı var. Milan Politexnik Universiteti ilə reallaşdırılan bu layihəyə böyük maraq var. Fakültə tərkibində 3 kafedra ilə yanaşı, İtaliya-Azərbaycan Dizayn Mərkəzi də daxildir”.

### Ustad dərsləri

Dizayn həftəsinin növbəti günündə dizayn fakültəsinin müəllimləri mövzular əsasında maraqlanan şəxslər üçün ustad dərsləri keçib.

Qrafik və media dizaynı kafedrasının təşkil etdiyi ustad dərslərində kafedranın müəllimləri Pərviz Əliyev və Firuzə Bədəlova dizaynın əsas istiqamətləri barədə çıxış ediblər.

Tələbələr müzakirələr zamanı onlar aktiv suallar verib, öz fikirlərini bölüşüb və mövzular ətrafında diskussiyalara qatılıblar. Bəzi tələbələr öz dizayn işlərini nümayiş etdirərək müəllim və yaşıdlarından rəy alıblar ki, bu da biliklərin qarşılıqlı şəkildə bölüşülməsi və təcrübənin inkişafı baxımından mühüm rol oynayıb.

Mühit dizaynı kafedrasının təşkil etdiyi ustad dərslərində Aytən Şərifova və Əşrəf Baxşıyev “Kağızın gücü - maketləşmə prinsipləri” mövzusunda çıxış ediblər. Tələbələr təqdimatdan dərhal sonra kiçik qruplarla işləyərək ideyalarını maketlər üzərində nümayiş etdiriblər.

Günel Ələsgərova “Fərdi mebel avadanlıqlarının kiçik ölçülü tətbiqi” mövzusunda real layihə nümunələri əsasında təqdimat apararaq tələbələrə fərdi yanaşmaların dizayn prosesində necə özünü göstərdiyini izah edib.

### “Açıq qapı” günü və sağlam həyat tərzinin təşviqi

“Dizayn həftəsi” çərçivəsində aprelin 23-də təşkil olunan “Açıq qapı” günündə müxtəlif məktəblərin şagirdləri, əsasən gələcəkdə dizayner olmaq istəyən abituriyentlər, o cümlədən valideynlər iştirak edib. Onlara universitetin dizayn sahəsindəki nailiyyətləri, tələbə layihələri və tədris prosesi barədə ətraflı məlumat verilib.

Eyni zamanda İtaliya-Azərbaycan Dizayn Mərkəzinin təşkilatçılığı ilə sağlam həyat tərzini təşviq edən təlim keçirilib. Tədbir zamanı tələbələr interaktiv furşet formatında sağlam qidalanma prinsiplərini öyrənib, təbii məhsullarla italyan pizzası hazırlayıblar. Bu təlim həm öyrədici, həm də əyləncəli şəkildə həyata keçirilib.

Həmin gün AzMİU-da cədvəl üzrə keçilən bütün dərslər açıq elan olunub. Arzulayan istənilən şəxs dərslərdə iştirak edib.

### Təbiətə açılan pəncərə

Təsviri incəsənət kafedrasının təşəbbüsü ilə açıq havada təşkil edilən plener tələbələrə real mühitdə müşahidə bacarıqlarını inkişaf etdirmək və işıq-rəng harmoniyasını əsərlərinə köçürmək imkanı yaradıb. Tələbələr canlı təbiətə əsaslanan rəsmlər çəkib, rəng duyumunu, kompozisiya bacarığını və fərdi ifadə tərzlərini ortaya qoyublar.

Tədbirin diqqətçəkən hissələrindən biri də memar və dizayner Kənan Sultanovun “S.E.N.S.U.M. by Amapola” layihəsi çərçivəsində çıxışı olub. O, “Vertikal yaşıllaşdırma” texnologiyasından danışaraq bu metodun ekoloji və estetik əhəmiyyətini izah edib. Tələbələr müasir memarlıqda fitodizaynın rolu ilə tanış olublar.

### Panel müzakirə - Müasir təhsil texnologiya ilə birgə

Həftənin dördüncü günü plenar müzakirələrlə davam edib. Müzakirələrin əsas mövzusu isə son illərin ən aktual məsələlərindən biri - “Təhsildə süni intellekt alətlərindən istifadə” olub.

Panelə Dizayn fakültəsinin Tələbə Elmi Cəmiyyətinin sədri Elşad Əliyev moderatorluq edib.

Panelin əsas spikerlərindən olan Qrafik və media dizaynı kafedrasının baş müəllimi Fəridə Qasımova çıxışında süni intellektin dizayn öyrənmə prosesində vizual və mətn əsaslı alət kimi necə istifadə edildiyini nəzərə çatdırıb.

“Dinamic Box”un həmtəsisçisi Yaqub Mehdiyev isə təqdimatında real layihələr üzərindən süni intellektin dizayn prosesinə olan təsirini izah edib.

“Code Academy”nin həmtəsisçisi və icraçı direktoru Ülvi Aslanov çıxışında vurğulayıb ki, gələcəyin dizaynerləri həm vizual estetikaya, həm də texnoloji savadlılığa malik olmalıdırlar.

“Dizayn həftəsi”nin sonuncu günü universitetdə dizayn tədrisinin tarixi, fakültənin uğurları, ümumi statistikalarla zəngin təqdimatlar həyata keçirilib. Sonra tələbələrin yaradıcılıq işləri hərraca çıxarılıb.

**Ruhiyyə DAŞSALAHLI**

Bu qala bizim qala. Bir az aşağı, bir az yuxarı, Şabran rayonunun Çaraqla Vələsli (əvvəlki adı Orta Əmirxanlı) kəndlərini yaxınlaşdıran, adamlarını yaxın dost, qonaq, qohum edən amillər çoxdur. Amma bu amillərin içərisində A.Bakıxanovun adlandırmasından sonra “Çıraqqala”ya çevirilmiş, tarixən “Çaraqqala” kimi tanınmış əzəmətli, estetik cəhətdən mükəmməl abidənin də rolunu unutmaq olmaz. Vələsli camaatı gözlərini açanda başlarının üstündə, bir az da dəqiq desək, kəndin şimal-qərbindəki dağ silsiləsinin sıldırım qayalarında məqam tutmuş bu abidəni görüb. Çaraqlılar da bir and yeri kimi ora üz tutublar. Kəndlərin arasındakı məsafə iki kəndin cavanlarına buranı görüş, ünsiyyət yeri kimi seçmələrinə imkan verib. Görüşlər insanlar arasında dostluğun yaranması, möhkəmlənməsi, ən vacibi isə övladlarının bir-birilərinə bağlanmaları ilə nəticələnib. Yüz ilin dostluğu. Amma bilmirəm ki, mənim atamla – İkinci Dünya müharibəsinin dəhşətlərini ömrünün sonuna qədər bədənindəki qızıl güllədə gəzdirmiş, xatirələrdə yaxşı müəllim kimi qalmış Allahverən Abbasovla, həmişə camaatın xeyirxah insan kimi tanıdığı, adamların sevincini özünün sevinci, kədərini kədəri bilmiş Şaban Şahbazov arasında dostluq nədən başlayıb, səbəb nə olub. Təkcə onu bilirəm ki, bu dostluğun tarixi az qala yüz ilə çatır. Yox, adlarını çəkdiyim bu klassik kişilərin heç biri yüz il yaşamayıb. Bu dostluğun onların övladları tərəfindən indi də müqəddəs bir dəyər kimi qorunmasını qeyd etdiyim “yüz” rəqəminin reallıqdan uzaq olmadığının göstəricisidir.

**Faiq Şahbazlı – 70**

# Müəllimlikdən başlayan ömür yolu

Yetmiş illiyi ilə bağlı yazmağa həvəslə cəhd etdiyim Faiq Şahbazlı mənim atamın dostu Şaban Şahbazovun oğludur. Onunla uzun illərin dostluğuna çevrilmiş münasibətlərimizin kökündə də bu dayanır, dostluğumuzun bu qədər qayım-qədim olmasının əsas səbəbini heç vaxt başqa yerdə, hansısa təmənnada axtarmamışıq. Əlbəttə, şəxsi keyfiyyətlər də yaddaşımızda silinməz izlər qoyub. Bizim əlaqələrimizdən, münasibətlərimizdən xəbərdar olanların da, olmayanların da simalarında Faiq Şahbazlıdan söhbət düşəndə bir işıq görmüşəm, təbəssüm hiss etmişəm. Çox vaxt faiqsevərlər onu münasibətlərin qoruyucusu adlandırır, dostlar arasında əlaqələrin təməli kimi qiymətləndirirlər.



### Fakültənin tanınan tələbəsi

*Xarakter və insan.* Bu məqamda başa düşürəm ki, aydınlığın üstündən üslub xatirinə ötmək olmaz. Ona görə də yazıram ki, Faiq Şahbazlı 1955-ci ilin aprelində yuxarıda adını çəkdiyim Orta Əmirxanlı kəndində dünyaya göz açıb. Çoxuşaqlı ailədə böyüyüb. Faiqin böyüdüyü ailə nümunə kimi, qısa da olsa, nəzərdən keçirilsə, heç kim heç nə itirməz. Yeri gəlmişkən, qeyd edim ki, mən özüm də belə bir ailənin övladıyam. Yaxşı bilirəm, çoxuşaqlı ailədə böyümək ayağı yer, əli iş tutandan ailənin köməkçisi olmaq deməkdir: kim nə bacarırsa, kimin gücü nəyə çatırsa, o sahədə üzərində məsuliyyəti hiss edir. Daha kiçik yaşlarda bir insan olaraq bu məsuliyyət bəzən mexaniki şəkildə yerinə yetirilir. Çox keçməmiş görürsən ki, ailənin gündəlik həyatında sənin də payın var. Düşünürəm: Faiqi Faiq edən amillərdən biri də elə bu imiş. 13-14 yaşından o dövrün uşaqlarının çoxu kimi, müstəqil həyata qədəm qoyub – həmin dövrlərdə Orta Əmirxanlı (indi Vələsli) adlanan kənddəki səkkizillik məktəbi qurtarandan sonra Dəvəçi şəhərindəki (indi Şabran) T.Abbasov adına orta məktəbdə təhsilini davam etdirib. Doğrudur, kəndlə əlaqəsi tamamilə kəsilməyib, bazar günləri kəndə gəlib, ata-anası, bacı-qardaşları ilə görüşüb. Hər halda, sonrakı həyatı ilə bağlı qərarlarını özü verib. Orta məktəbi başa vurduğu il ali məktəbə qəbul olmayıb. Ona görə yox ki, qəbul imtahanlarından kəsilib, müsabiqədən keçməyib. Müəllim olmaq istəyib, Azərbaycan dili və ədəbiyyat müəllimi. İstəyin toxumlarını onun qəlbinə ədəbiyyat müəllimləri Qədir müəllimlə Sima müəllim səpib. O dövrlərdə yaşamış insanlar bu ixtisas üzrə təhsil almaq üçün ali məktəbə qəbul olmağın çətinliyini, yəqin ki, xatırlayırlar. Müsabiqə böyük olurdu.

Amma ruhdan düşmədi. Bəlkə də ailədə hələ kiçik yaşlarından onda formalaşmış xarakter onu ümidsizliyə qapılmağa qoymadı. Növbəti il arzu etdiyi ixtisas üzrə ali məktəbə, V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun Filologiya fakültəsinə qəbul olundu. Öyrənməyə sevgisi, çətinliklərdən çəkinməməsi çox keçməmiş onu fakültənin tanınan tələbəsinə çevirdi. Və buranı fərqlənmə diplomu ilə başa vurdu. Ömür-gün yoldaşını da elə tələbəlik illərində seçmişdi.

### Ucqar kənd məktəbinin müəllimi

Məndən başqa xatırlayanlar da olar. Haqqında söhbət gedən dövrlərdə ali məktəbi fərqlənmə diplomu ilə başa vurmaq elə də asan deyildi. Bu, təkcə kitablarla keçirilən yuxusuz gecələr demək deyildi, həm nümunəvi intizam, həm institut, həm də elə mikrocəmiyyətin ictimai həyatında yaxından iştirak etmək, tanınmaq tələb olunurdu. Bu zirvəyə çatanlara da ali məktəb öz qayğısını əsirgəmirdi. Onların ali məktəbdə saxlanılması, aspiranturaya qəbuluna şərait yaradılması, sonra müvafiq kafedrada işlə təmin olunması belə qayğıların bir qismi idi. Gənc məzunun da belə bir şansı vardı. Amma o, başqa yol seçdi. Ürəyində hamıdan gizli saxladığı bir arzusuna çatmazdan əvvəl məktəbdə işləmək, pedaqoji təcrübə qazanmaq istəyirdi. Eşidənlərin çoxu təəccüb etsə də, Faiq fikrindən dönmədi. Heç kəsin gözləmədiyi bir addım atdı. İmkan olsa da, institutda qalmağa cəhd etmədi, təyinatını böyüyüb başa çatdığı Dəvəçiyə almadı, Quba rayonunun ucqar bir kəndində – Xaltanda orta məktəbdə işləməyə qərar verdi. Özü kimi Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisasına yiyələnmiş həyat yoldaşı və ilk sevginin bəhrəsi kimi nə baş verdiyini hələ körpə ürəyinə salmayan qızları Könülü də götürüb yollandılar Xaltana. Qısa müddət müəllim-direktor müavini, sonra isə direktor işlədi. Çalışdığı məktəbdə yeniliklərin tətbiqinə, şagirdlərin bir şəxsiyyət kimi formalaşmalarına, müəllimlərin yaradıcı fəaliyyətinin artırılmasına qayğı göstərdi, əlindən gələni etdi ki, bu ucqar dağ kəndinin məktəbi, onun şagirdləri yaxşı ad çıxarsınlar.

*Bir qeyd:* Olub ki, Faiq müəllimin vaxtilə dərs dediyi, indi özləri də bir elin, bir obanın ağsaqqalı olan adamlarla görüşlərində iştirak etmişəm. Bir andaca sanki, uşaqlaşıblar, həminki dövrə qayıdıblar. Sözləri, hərəkətləri ilə müəllimlərinə ehtiramlarını bildiriblər, tanınmış təhsil işçisi, Azərbaycan Respublikasının Əməkdar müəllimi, dəyərli dilçi alim Faiq Şahbazlı ilə aşkar fəxr etdikləri gözlərindən, səslərindəki ehtiramdan hiss olunub.

### Tələbələrinin sevimli müəllimi

*Gizli arzunun arxasınca.* Hər halda, onu daim öz şirinliyi ilə çəkən arzusunu da unuda bilmədi. Təhsil aldığı institutun aspiranturasına qəbul olundu. Vaxtilə ona dərs demiş, dekanı olmuş tanınmış dilçi alim, xeyli müddət APİ-yə uğurla rəhbərlik etmiş akademik Afad Qurbanovun rəhbərliyi ilə dissertasiya işi üzərində çalışıb. Maraqlı olduğu qədər də mənəvi olan bir mövzunu tədqiq edib. Müəllimi Ə.Dəmirçizadənin elmi-pedaqoji görüşlərini araşdırıb. Aldığı nəticələr görkəmli alimlər tərəfindən yüksək qiymətləndirilib. Bu, az-az baş verən hadisələrdəndir: Elmi əsərin, elmi işin mənəvi, əxlaqi nəticəsinin olması. Faiq Şahbazlının dissertasiya işində bu vəzifənin ustalıqla yerinə yetirilməsi də peşəkarların diqqətindən yayınmayıb...

Sonra vaxtilə özünün təhsil aldığı ali məktəbdə laborant, müəllim kimi çalışıb. Baş müəllim, dosent olub. Bunlar eyni tip hadisələr üçün cığır kimi də qiymətləndirilə bilər. Amma Faiq müəllim heç vaxt bu ülgülərə qısılmayıb. Çox keçməmiş dərs dediyi tələbələrinin sevimlisi olub, nümunəvi pedaqoq kimi haqqında xoş sözlər deyilib. Amma özü də etiraf edir: təkcə dərs deməklə nə yaxşı müəllim olmaq mümkündür, nə də yüksək keyfiyyətli kadr yetişdirmək. Keçirdiyi tədbirləri, tələbələri ilə birlikdə iştirak etdikləri konsertləri, olduqları muzeyləri xatırlayan dərs dediyi məzunlar indi də həmin günləri məmnunluqla yada salır, şagirdləri ilə işdə keçmiş müəllimlərinin nümunəsindən, onlar üçün etdiklərindən danışırlar.

*Əbədi sevgi.* F.Şahbazlıda müəllim peşəsinə bir vurğunluq, bir sevgi var. Bunun üçün müəllimlərinə borclu olduğunu deyir. Deyir ki, bir dəfə sonralar elmi-pedaqoji fəaliyyəti ilə bağlı elmlər namizədliyi üzrə dissertasiya işi yazdığım Ə.Dəmirçizadənin dərsi idi. Amma tələbələri hansısa tədbirə aparmışdılar. Mən ona məsələni bildirmək, dərs olmayacağını demək üçün qalmışdım. Kafedraya gəldim. Tələbələrin tədbirdə olduqlarını dedim. – Eybi yox, gedək auditoriyaya, – dedi. Sonra əlavə etdi: Faiq, mən otaqda istər əlli tələbə olsun, istər bir tələbə, fərqi yoxdur, həmin mühazirəni deyəcəyəm. Otur, mühazirəyə başlayım. Beləliklə, 90 dəqiqə ərzində mühazirəsini dedi, sualımın, başa düşmədiyim bir məsələnin olub-olmadığını soruşandan sonra, birlikdə kafedraya gəldik. Gülümsəyib, – diqqətlə qulaq asırdın, – dedi. Sağollaşıb ayrıldıq. İlk baxışda bir o qədər də ciddi görünməyən bu hadisə qəlbimdə dərin izlər buraxdı. Yadıma məşhur bir hekayət düşdü. Çoxdan oxumuşam. Səhv etmirəmsə, ortaq türkün böyük dəyərlərindən biri ilə bağlıdır: deyilir ki, digər tanınmış müəllimlər onun dərsində otururlar. Dərsdən sonra hamı tərifləsə də, biri çəkinə-çəkinə deyir: Böyük ustad, dərsə söz yoxdur. Amma tələbələrin bəzilərinin diqqətinin dağınıq olduğu hiss edilirdi...

Cavab belə olur: Düz deyirsən. Amma sən, görünür, gözlərindən öyrənmək, bilmək sevgisi yağan arxada əyləşmiş bir nəfəri görməmisən. Təkcə ona görə, başqa heç kəs dinləməsə belə, mən dərsimi böyük həvəslə deyirdim...

Bəli, Faiq Şahbazlının müəllimi, indi haqq dünyasında olan Ə.Dəmirçizadənin də görünür, bu hekayətdən xəbəri varmış. Və gələcəyinə böyük ümidlər bəslədiyi Faiqin də məlumatlı olmasını istəyirmiş.

### Təcrübəli təhsil idarəçisi

İndi F.Şahbazlı Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya kollecinin direktorudur. Böyük kollektivdir. Lakin özünün dediyi kimi, kollec tələbələri ali məktəb tələbələri deyil. Amma bununla belə mən həmişə müəllimlərimizdən auditoriyada daha istedadlı tələbələrə köklənməyi, onların gözlərindəki atəşə diqqət verməyi xahiş edirəm.

Özü təvazökarlıq elədi, demədi. Amma mən bilirəm ki, F.Şahbazlı bu kollecdə direktor kimi çalışandan bəri çox dəyişikliklər olub. Həm təlimdə, həm də mənəvi tərbiyə üzrə aparılan işlərdə uğurlar qazanılıb. Faiq müəllim deyir ki, kollektivin gücü, səmimiyyəti, gərgin əməyi sayəsində buna nail ola bilmişik.

Təkcə təhsil sahəsi? Yox, Faiq Şahbazlı ancaq təhsil sahəsində, təhsil adamları arasında tanınan bir insan deyil. Onu həm də vaxtilə dərs dediyi, indi isə rəhbərlik etdiyi kollecin məzunlarının nümunəsində tanıyanların sayı daha çoxdur. Təkidimdən sonra onun tələbəsi olmuş keçmiş məzunlardan aldığı məktublardan bir neçəsinə baxmağıma icazə verir. Qürurludur. Biri ona düz yol göstərdiyinə, digəri haqqının tapdalanmasına imkan vermədiyinə, bəziləri isə həyatda düzgün mövqe tutmaqda onlara bələdçi olduğu üçün... təşəkkür edir, razılığını bildirir.

### Elmi araşdırmaları, tədqiqatın nəticələri

*Gizli niyyət.* Bunlar öz yerində. Gənclərlə ünsiyyətdə olan hər bir insan üçün vacib xüsusiyyətlərdir. Yadımıza salaq ki, Faiq müəllim uğur qazandığı, sevildiyi kollektivdən – Quba rayonunun Xaltan kənd məktəbindən məhz ürəyində uzun illər gizli saxladığı bir arzusuna görə, elmi araşdırmalar aparmaq, elmi mühitə qaynayıb-qarışmaq üçün ayrılmışdı. Tale onu müxtəlif sahələrdə çalışmağa “təhrik” etsə də, heç vaxt elmi fəaliyyətdən əl götürməyib. Tədqiqatlarının nəticələri haqqında həm ölkə, həm də xaricdə keçirilmiş elmi konfranslarda çıxışlar edib. Yüzə yaxın əsərin-dərsliyin, dərs vəsaitlərinin, məqalənin, tezisin müəllifidir. Qədirbilən oxucuların, elmsevərlərin diqqətini F.Şahbazlının qələm məhsullarının dilinə, üslubuna yönəltmək istəyirəm. Bu, müasir elm üçün ən önəmli tələblərdəndir: Aydınlıq, arzu edən digər peşə sahibləri tərəfindən də başadüşülənlik. Bunlar F.Şahbazlının yaradıcılığında həmişə diqqəti cəlb edən cəhətlərdəndir. Sonra elmdə varislik. Onun uğurlarını təvazökarlıqla elmdə bünövrə yaratmış dəyərli alimlərimizin, xüsusən, müəllim-tədqiqatçıların əməyi ilə əlaqələndirməsi və onların paylarının olmasını etiraf etməsi lazımlı keyfiyyət kimi diqqəti həmişə cəlb edib.

Bilirəm ki, 20 il Təhsil Nazirliyində çalışması, bunun böyük bir hissəsini Təhsil resursları şöbəsinə rəhbərlik etməsi, Təhsil İnstitutunun direktor müavini və Mərkəzinin rəhbəri kimi fəaliyyəti də Faiq Şahbazlının həyatında qaları bir iz qoyub. Yeni nəsil dərsliklərin, onların elektron variantlarının yaradılmasında, təhsilin müasir məzmununun hazırlanmasında, milli təhsil kurikulumunun formalaşdırılmasında birbaşa iştirak edib, bir az dəqiq desək, bu sahə üçün məsuliyyət daşıyan şəxs olub. Bu istiqamətlərdəki fəaliyyətin hər anı gərgin zəhmətin, dünya təcrübəsinin araşdırılmasının, nəticələrin milli dəyərlərimiz nəzərə alınaraq tətbiqinin reallaşdırılması nəticəsində baş tutduğunu nəzərə alanda F.Şahbazlının Təhsil Nazirliyindəki əməyinin nəticəsi daha aydın görünür...

### Nümunəvi ailə başçısı

Dünyanın diqqətini çəkən xüsusiyyətlərdən biri də ailə dəyərlərimizdir. Həyat yoldaşının bir insan kimi Faiq müəllimlə hansı çətinliklərdən keçdiyinə bir işarə var yazıda. 3 övladları var. Təbii, valideyn sevgisi ilə əhatə olunublar. Amma bu sevgi onları ərköyünləşdirməyib, insanlara ancaq yaxşı münasibət formalaşdırıb. İndi hər biri öz sahəsində ləyaqətlə çalışır, valideynlərinin yolunu müqəddəs tuturlar. Qızı Könül atasının yolunu davam etdirir- fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosentidir, məsul vəzifədə çalışır. Oğlanları Çingiz və Oğuz maliyyə sahəsində işləyirlər. İşdə də onların çalışqanlıqları, ən əsası isə başqalarına münasibətləri yüksək qiymətləndirilir.

Nəvələri gözəl təhsil alır. Biri universitet qurtarıb. Üçü tələbədir, hələ balaca, çox istedadlı Faiq Şahbazlı da var.

Dostum və qardaşım Faiq Şahbazlı ilə bağlı yazıya başlayanda bilirdim ki, onun 70 illik mənalı ömrü bir məqalədə, olduğu kimi ifadə edilə bilməz. Ona görə də təki sən yaşa, yüz il yaşa, qardaşım, deyərək, yazıya nöqtə qoyuram.

**Oqtay ABBAS,**
*ADU-nun dosenti*

# “Bir damla suyun səyahəti”



Aprel ayının yağmurlu günlərindən birində Fizika Riyaziyyat və İnformatika təmayüllü liseyin (FRİTL) kollektivi – şagirdləri və müəllimlər “Bir damla suyun səyahəti”nə şahid oldular. Məktəbin akt zalında səhnələşdirilən səyahətdə bir damcının xilas etdiyi orqanizmlər, çarə olduğu orqanlar, bir damcıya möhtac yerlər gözlər önündə canlandırıldı, təbii ki, məktəbin şagirdlərinin ifasında.

## Şagirdlər suyu rəsmə köçürdü, səhnəyə qoydular






### Suyun səyahəti şagirdlərin rəsmlərində

Şagirdlərin bir qismi sudan pis istifadənin doğurduğu ağır nəticələri çəkdikləri rəsmlərlə anlatmağa çalışıb. Liseyin dəhlizində açılan sərgidə VII və VIII sinif şagirdlərinin dünyanın su probleminə baxışı sərgilənib. Şahin Bəkirli öz təsvirində inkişaf edən sənayenin yaratdığı çirklənmə fonunda bəşər boyda su damcısının qorunmağa ehtiyac duyduğunu ifadə edib.

Şahin ötən ildən başlayaraq rəsm çəkir. FRİTL-də oxumaq əsas hədəfi olub, bu il ən böyük hədəfinə çatıb. “İndi hədəfim xaricdə oxumaqdır”, – deyən VII sinif şagirdi FRİTL-in məzunlarının əksəriyyətinin xaricdə təhsil aldığını düşünərək onun da buna nail olacağına inanır. Həkim olmaq istəyir, ancaq rəsm çəkməyə də davam edəcək.

VIII sinif şagirdi Rəsul Şirinov suyun əhəmiyyətini kimya və biologiyanı öyrənməyə başlayanda anlayıb. Bu tədbirə hazırlaşarkən isə sudan qənaətlə istifadənin zərurətini başa düşüb: “Çəkdiyim rəsmdə susuzluğun 5 yerdə təsirini göstərməyə çalışmışam”.

VIII sinif şagirdi Nəzrin Abdullazadə də çəkdiyi rəsmlə dünyanın su probleminə biganə qalmayıb: “Məktəbli dostlarımla birlikdə suya münasibətimi bildirmək istədim, dünyamızın susuz qalmaması üçün əlimdən gələni etdim”.

Zərifə Hüseynli VIII sinifdə oxuyur. Dünyanın suya olan ehtiyacını bir damlaya möhtac insanların damcıya sarı uzanan çarəsiz əllərini təsvir edərək göstərib. Zərifə robototexnika üzrə mütəxəssis olmağı düşünsə də, rəsm çəkməyə də ara verməyəcəyini söyləyir.

VIII sinif şagirdi Aydan Quliyeva rəsminə “Bir damla su bir dünya həyatdır” adını verib: “Damlanın içərisində həyat təsvir etməyə çalışmışam. Yarpağın üzərindəki bir damlada bir damcı suya ehtiyac duyan həyatı təsvir etmişəm”.

### Öyrədici, əyləncəli...

Tavandan asılan ağ buludlar “ağlayır”. Oradan süzülən damcıların həyat verdiyi canlı orqanizmlərlə bəzənən divarda balıq növləri, xərçəng, bir sözlə suyun həyat verdiyi, sadəcə suda yaşayan heyvanlar təsvir olunub.

Hiss olunur ki, liseyin qonaqlarını uşaqların rəsm, musiqi, qiraət və başqa bacarıqlarını göstərdiyi bir dünya ilə tanışlıq gözləyir. Bu dünyaya bələdçiliyi liseyin məzunu, Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Natiq Oruclu edir. Səhnədə onunla bərabər bu səyahətin qəhrəmanı Damla da var. Öyrədici, əyləncəli tədbir Damlanın monoloqu ilə başlayır.

Damla rolunda VIII sinif şagirdi Pəri Mancanlıdır: “Suyun hər damlasının rolunu öyrəndik, nə qədər önəmli olduğunun fərqinə vardıq. Yoldaşlarım da artıq su israfına fərqli baxmağa başlayıb”.

Sonra bədii, elmi məlumatlarla zəngin kompozisiyalar bir-birini əvəz edib.

Səhnədə səkkizincilərdir. Suyun təmizlənməyindən Rəsul Məmmədov danışır. İnci Abdullayeva suyun tərkibini açır, yodlaşdırılması prosesinin əhəmiyyətini Nahid Kazımov araşdırıb. Sonra Zəhra Rüstəmli suyun növlərini izah edir. Nübar Yusifzadə suyun dad və qoxusunu dəyişdiyi halları bir-bir göstərir.

### Suya nəğmələr oxudular

Şagirdlər bir azdan ifa edəcəyi mətni təkrarlayır, həyəcanla səhnə alacağı anı gözləyirlər. Çox fəal görünən Fatimə Səmədova yoldaşlarını yönləndirir, sıralarına nəzarət edir, həyəcanlarını idarə etməyi öyrədir: “Mən komandamızın kapitanıyam. Ona görə də hər şeyin yaxşı olmasına çalışıram”.

Səhnəyə alışıq olmayan daha bir komanda çıxır. “Su səssiz qəhrəmandır, gəldiyini anlamazsan, getdiyini bütün bədən anlayar” – şüarı ilə “İnsan orqanizmi” komandasının üzvləri -Nuray Yolçuyeva, Fatimə Səmədova, Sona Əliyeva, Banu Həsənli, Rəsul Şirinov, Raqif Fətəlizadə, Məhəmməd İbrahim ağız, mədə, bağırsaq olub suyun keçdiyi yolları göstərib, beyinlə ürəyin dialoqunu qurur, suyun daha çox kimə lazım olduğunu araşdırırlar.

FRİTL şagirdləri “Təsəvvür et ki, sən susan, su kimi həyat verən ol, fəlakət törədən yox”, – deyib insanlığa ismarıc ötürdülər.

Sonra hidrogenlə oksigen arasında yarış başladı. Yarış şərtlərinə uyğun olaraq iştirakçılar sözlərində su və su ilə bağlı hər hansı söz olan mahnı oxudu. Bütün tədbir iştirakçılarının qatıla bildiyi, musiqili viktorina şəklində olan yarışa müəllimlər, hətta qonaqlar da qoşuldu. Qalib gələn “Oksigen” komandası olsa da, qazanan dostluq oldu.

FRİTL şagirdlərinin “Bir damla suyun səyahəti”nə məzunları da qoşuldu. Onların video çağırışında da suyun mühafizəsinin əhəmiyyəti vurğulandı.

Coğrafiya İnstitutunun şöbə müdiri, professor Rza Mahmudov dedi ki, taleyi su ilə bağlı olan tədqiqatçı kimi əlavə etməyə söz tapmayıb: “Hər şeyi şagirdlər dedi”. “Azərbaycan müəllimi” bir damla suyun əhəmiyyətini məktəb şagirdləri ilə birlikdə bütün uşaqlara çatdırmağa, böyük təhlükə qarşısında olan suya münasibəti dəyişməyə, fərqindəliyə nail olmağa çalışan komanda ilə də tanış olub. Uşaq birliyinin rəhbəri Nərmin Hüseynzadə, məktəbin rəsm müəllimi Mətanət Məmmədova, musiqi müəllimi Sevinc Seyidova, məktəbin psixoloqu Sevda Nəbiyeva tədbirin dizaynından tutmuş mətnlərə, deyilən şeirlərə, sərgilənən rəsmlərə qədər bütün işi bir yerdə görüblər: “Məqsədimiz insanları suya qənaətə təşviq etməkdir. Bu prosesə məktəblilərdən başlamaq ən yaxın yoldur. Biz də öz şagirdlərimizdən başladıq. Bir qismi hazırladıqları kompozisiyalarla, bir qismi yoldaşları hazırlaşarkən, ya da səhnədə çıxış edərkən öyrəndi. Fikrimizcə, şagirdlərimiz eşitdikləri, gördükləri ilə suyun əhəmiyyətini öyrənəcək, sərvətimizdən qənaətlə istifadə etməyi vərdişə çevirəcəklər”.

“Bir damla suyun səyahəti”ndə şagirdlər suyun mühafizəsi, su ehtiyatları, sənayedə, səhiyyədə və başqa sahələrdə suyun rolu, israfının qanunla cəzası, ölkə başçısının bu istiqamətdə verdiyi qərarlara qədər hər məqama toxundular.

Bir sözlə, məktəblilər səhnə qurub ağac oldu, suya döndü, bitkiyə çevrildilər. İnsanın səbəb olduqlarının elə insan üçün nə ilə nəticələnəcəyinin acı mənzərəsini göstərdilər.

Suyun qədrini bilsin deyə dünyaya səsləndilər. Su ömrü diləyib, “su qədər əziz ol”, – dedilər.

**Ruhiyyə DAŞSALAHLI**

# AZƏRBAYCAN TƏLƏBƏ LİQASININ QRUP OYUNLARI YEKUNLAŞIB

Elm və Təhsil Nazirliyi və Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı ilə ali təhsil müəssisələrinin tələbələri arasında futzal üzrə 2024-2025-ci illər mövsümünün qrup oyunları başa çatıb. Liqanın keçirilməsində məqsəd ali təhsil müəssisələrinin tələbələri arasında potensial idmançıların aşkar edilməsi, bu idman növünə marağın artırılması və tələbələrdən ibarət futzal üzrə yığma komandanın formalaşdırılmasıdır.

Liqanın pley-off mərhələsində Azərbaycan İdman Akademiyası ilə Bakı Dövlət Universiteti, həmçinin Azərbaycan Texniki Universiteti ilə Bakı Mühəndislik Universitetinin komandaları mübarizə aparacaq. 12 ali təhsil müəssisəsinin komandalarının mübarizə apardığı yarış may ayında yekunlaşacaq. Qeyd edək ki, Azərbaycan Tələbə Liqası Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının dəstəyi ilə keçirilir.




**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-64-00
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan nəşriyyatı" MMC, 9-cu mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 2210 **Sifariş** 865
**Məsul növbətçi:** O.Mustafayev



# Etibarsız sayılır



**Salyan rayon** Yolüstü kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Həsənov Vasif Ağaəhməd oğluna verilmiş B-028366 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 154 nömrəli tam orta məktəbin XII gecə sinfini 2007-ci ildə bitirmiş Süleymanov Rüstəm Tofiq oğluna verilmiş B-372687 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 250 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Rüstəmli Ələsgər Mehman oğluna verilmiş E-008909 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 21 nömrəli tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Bağırova Gülüstan Alov qızına verilmiş A-137433 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəb** tərəfindən 2008-ci ildə Mehdiyev Ələsgər Əli oğluna verilmiş B-107984 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2004-cü ildə Rüstəmov Rüfət Allahverdi oğluna verilmiş A-135904 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 130 nömrəli tam orta məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Qəniyev Adəm İlqar oğluna verilmiş C-898377 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir 23 nömrəli Texniki Peşə Məktəbi** tərəfindən 1985-ci ildə Allahyarov Xəqani Ağayar oğluna verilmiş A-480932 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 8 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş İsmayılzadə Nurlan Hikmət oğluna verilmiş E-728184 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Nemətzadə Yusif Azər oğluna verilmiş B-533219 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 130 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Məmmədyarov Anar Əliyar oğluna verilmiş A-100773 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**14 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2014-cü ildə Binnətova Cəmilə Bəhmən qızına verilmiş A-043712 nömrəli diplom və A-290416 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** I Aşıqlı kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Səfərli Şəlalə Təvəkkül qızına verilmiş A-662194 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Ağaməmmədli kənd tam orta məktəbi 1982-ci ildə bitirmiş Vəliyev Muğan Qalası oğluna verilmiş A-709385 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 265 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Yaqubova Kəmalə Çingiz qızına verilmiş A-653568 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes və Kooperasiya Kolleci** tərəfindən 2008-ci ildə Qaracayeva Xanza İmran qızına verilmiş BB-II-074879 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Abasallı kənd tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Qasımova (Süleymanova) Həmayıl Səbuhi qızına verilmiş B-747414 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 261 nömrəli məktəb-liseyi 1999-cu ildə bitirmiş Mahmudova Vəfa Fəryad qızına verilmiş A-293595 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 72 nömrəli məktəb-liseyi 2003-cü ildə bitirmiş Əliyev Fərid Ələsgər oğluna verilmiş A-701148 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Orta Ləki kənd tam orta ümumtəhsil məktəbin VIII sinfini 1993-cü ildə bitirmiş Kazımova Xədicə Əhməd qızına verilmiş 127045 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Mustafayev Şavan Şahmurad oğluna verilmiş B-422777 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2008-ci ildə Səfərov Rövşən İlyas oğluna verilmiş B-117344 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Kolleci** tərəfindən 2018-ci ildə Zeynalova Mətanət Natiq qızına verilmiş AA-118497 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 273 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Talıbova (Bahar) Nərminə Mais qızına verilmiş A-157850 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2020-ci ildə Orucova Nərminə Faik qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Yalama kənd tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Kərimova Zəminə Vahid qızına verilmiş B-544603 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 7 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Ahəngari Əlihüseyn İsmayıl oğluna verilmiş E-168763 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Xudat şəhər 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Rəsulov Təmirlan Nizamiyeviçə verilmiş A-530992 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər Təbiət-Riyaziyyat və Humanitar Elmlər Təmayüllü Liseyi** 2012-ci ildə bitirmiş Salmanov İsmayıl Hüseyn oğluna verilmiş A-139156 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1988-ci ildə bitirmiş Ramazanova Rəna Həzi qızına verilmiş A-397449 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Muğanlı kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Əliyev Pərviz Vidadi oğluna verilmiş A-447145 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**14 nömrəli Bakı Texniki Peşə Məktəbi** tərəfindən 1988-ci ildə Həsənov İlqar Nadir oğluna verilmiş B-095294 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 86 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Nikolayev Fərid Vladislavoviçə verilmiş E-668590 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Tasmalı kənd tam orta məktəbi 2023-cü ildə bitirmiş Mirzəyev Zamiq Sadiq oğluna verilmiş E-593746 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Məmmədova Fidan Müşviq qızına verilmiş E-434243 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2021-ci ildə Cəfərova Səbinə Ramiz qızına verilmiş C-122931 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Kolleci** (indiki 1 nömrəli Bakı Tibb Kolleci PHŞ) tərəfindən 2022-ci ildə Hüseynova Fidan Məhəmməd qızına verilmiş AA-170263 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** İlyas Əfəndiyev adına Elitar Gimnaziyanı 2007-ci ildə bitirmiş Əhmədzadə Asif Vahid oğluna verilmiş B-423345 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 91 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Ağayev Fuad Fizuli oğluna verilmiş B-203258 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 85 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Kövrüyeva Aysel Taciddin qızına verilmiş B-374289 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**7 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 1998-ci ildə Nəcəfov Səxavət Nəcəf oğluna verilmiş AB-031939 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** nəzdində Bakı Texniki Kollec tərəfindən 2020-ci ildə Fərəcov İlkin Cəmil oğluna verilmiş AA-135334 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 67 nömrəli tam orta məktəbin IX sinfini 2022-ci ildə bitirmiş Məmmədov Kənan Rəfael oğluna verilmiş C-607371 nömrəli ümumi orta təhsil haqqında attestat və 2024-cü ildə verilmiş E-677349 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci** tərəfindən 2014-cü ildə Şirinov Fərid Şəmsəddin oğluna verilmiş AA-040070 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 1 nömrəli Humanitar və Təbiət fənləri təmayüllü məktəb-liseyi 2017-ci ildə bitirmiş Fərəcov İlkin Cəmil oğluna verilmiş E-066523 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Yenigün kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Əzimova Mələk Əziz qızına verilmiş 120 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Sadıqlı kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Alıyeva Sirena Mansır qızına verilmiş A-610807 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Sadıqlı kənd tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Hacıyeva (Xəlilova) Vəfa Mikayıl qızına verilmiş B-347894 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Məmmədova Gülmira Maarif qızına verilmiş A-107055 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Məmmədova Gülnar Qabil qızına verilmiş A-627751 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 39 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Məmmədova Gülgəz Kərəm qızına verilmiş A-029082 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 26 nömrəli Fizika-riyaziyyat və informatika təmayüllü məktəb-liseyi 2005-ci ildə bitirmiş Kərimova Gülmira Elxan qızına verilmiş B-137531 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Zeynalova (Süleymanova) Aynur Kamran qızına verilmiş B-692700 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Həsənova Ruhiyyə Qabil qızına verilmiş A-115650 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Hacızadə Arifə Oqtay qızına verilmiş B-577770 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 1 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Mehdizadə Anar Ziyadxan oğluna verilmiş E-238411 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran 34 nömrəli Texniki Peşə Məktəbi** tərəfindən 1986-cı ildə Qənbərov Azad Qənbər oğluna verilmiş 411516 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Yusifov Həsənağa Yusif oğluna verilmiş C-764077 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** İsgəndərli kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Çitadze Salima Yaşayevnaya verilmiş B-084446 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 7 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Bayramzadə Mirhəsən Azər oğluna verilmiş E-728084 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 5 nömrəli məktəb-liseyi 2000-ci ildə bitirmiş Haqverdiyeva Rəna Zakir qızına verilmiş A-367043 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 12 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Kərimli İlkin Rövşən oğluna verilmiş E-754625 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbin VIII sinfini 1993-cü ildə bitirmiş Qafarov Şahin Balahüseyn oğluna verilmiş A-904261 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Slavyan Universiteti** tərəfindən 2017-ci ildə Şahlarlı Xəyalə Fikrət qızına verilmiş A-117128 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 225 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Hüseynov Hüseyn Mərdan oğluna verilmiş E-201952 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

ARTİ-nin Tədris Resursları Mərkəzinin şöbə müdiri Əsgər Quliyev ailəsi ilə birlikdə MÜTDA-nın Ümumi təhsilin təşkili şöbəsinin aparıcı mütəxəssisi Əhliyyət Adıgözəlova qardaşı

**MÖHÜBBƏT ADIGÖZƏLOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Heydər Əliyev adına Liseyin direktoru Sevinc Orucova və kollektivi MÜTDA-nın Ümumi təhsilin təşkili şöbəsinin aparıcı mütəxəssisi Əhliyyət Adıgözəlova qardaşı

**MÖHÜBBƏT ADIGÖZƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.